www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13-14 dekabr 2014-cü il Şənbə № 304 (6013) Qiyməti 40 qəpik

Xəbər

## Müsavatın 14 dekabr mitinqinə icazə verildi

yazısı səh.6-da

Gündəm

### Bu gün partiya sədrləri Əli Həsənovla görüşəcək



İqtidar təmsilçisi ilə görüşə gedənləri aşağılayan AXCP rəhbərliyinə Mirmahmud Mirəlioğludan sərt cavab: "Yazıqların yuxusu qaçıb..."

yazısı səh.6-da

### Xədicə İsmayılın müdafiəsində yeni mərhələ

yazısı səh.5-də

### 102 saylı Samux-Şəmkir seçki dairəsində dərəbəylik

yazısı səh.3-də

### Müxalifət siyasi fantoma necə çevrildi...

yazısı səh.9-da

### Ermənistanın xarici borcları rekord həddə

yazısı səh.11-də

### Gəncədəki məmur-vətəndaş toqquşmasının üzə çıxardığı həqiqət

yazısı səh.12-də

### "Qarabağ"ın oyanmayan qara bəxti - dünya etiraza qalxdı

yazısı səh.13-də

### Bank borca görə intihar edən qadının ailəsinə güzəşt edəcək

yazısı səh.14-də

### Zombi və manyak sözləri dilimizə necə gəlib?

yazısı səh.13-də

### Nazirlikdən hava xəbərdarlığı; sulu qar, qar yağacaq

yazısı səh.14-də

### Media Hüquqları İnstitutu ofisini tərk edir

yazısı səh.10-da

### Ötən ay ölkədə 54 nəfər qidadan zəhərlənib

yazısı səh.10-da

## Dünyanı təhdid edən terror təhlükəsi böyüyür

# İŞİD AZƏRBAYCANA SOXULMAĞA ÇALIŞIR

Məlumata görə, son günlər ölkəmizdəki radikal qruplaşmalar yenidən fəallaşıblar, hətta silahlanmaları ilə bağlı məlumat da yayılır; İŞİD-in "işartıları" Sumqayıtda necə görünmüşdü?; yaxın aylarda dini qruplara qarşı əməliyyatın genişlənəcəyi gözlənilir



yazısı səh.8-də

## Azərbaycanda "üsyan məşqləri"nin arxasında kim durur?

Kənardan görünən budur ki, bəzi məmurlar ali siyasi hakimiyyət üçün bir tələ hazırlamaq, qanlı olaylara yol açmaq istəyirlər; ABŞ hadisələrin mərkəzində dayana bilərmi...

yazısı səh.4-də



### Qərib Məmmədov və "Azərsu"nun birgə 12 milyonluq maxinasiyası

yazısı səh.5-də



Sülhəddin Əkbər

### Sabiq milli təhlükəsizlik zabitindən şok çağırış

yazısı səh.10-da



### Zəlimxan Məmmədli Gürcüstana buraxılmaması ilə bağlı mətbuat konfransı keçirdi

yazısı səh.3-də

13-14 dekabr 2014

YENİ MÜSAVAT
N 304 (6013) 13 dekabr 2014

# Soros Fonduna qarşı iddianı kim qaldırıb...



**Təşkilatın keçmiş əməkdaşı Gültəkin Bünyatova quruma qarşı məhkəmə iddiasının onun tərəfindən qaldırıldığını deyir, vəkil isə əksini söyləyir.**

"Yeni Müsavat"ın ötən sayında Açıq Cəmiyyət İnstitutu Yardım Fondunun Azərbaycan nümayəndəliyinin fəaliyyətini dayandırması ilə bağlı yazı dərc olunub. Yazıda qeyd olunur ki, qurumun baş ofisi dekabrın 10-da ACİYF-nin Bakı bürosunun bağlanması ilə bağlı qərar verib. Artıq qərara uyğun olaraq ləğvetmə işlərinə başlanıb.

"Yeni Müsavat"ın əməkdaşı ilə söhbət zamanı **vəkil Elçin Sadıqov** bildirib ki, ACİYF-in Azərbaycandakı ofisi fəaliyyətini 2011-ci ildən dayandırıb. İndi isə qərar qəbul olunub və təşkilatın ləğv edilərək reyestrdən çıxarılması prosesi başladılıb: "Təşkilatın tamamilə ləğv edilməsinin bir səbəbi bir sıra QHT və beynəlxalq donor təşkilatların Azərbaycandakı nümayəndəlikləri ilə bağlı açılan cinayət işi ilə bağlıdır. Digər tərəfdən, rəhbərlik qərar verib ki, artıq qurumun fəaliyyətinə son verilsin. Biz ümid edirik ki, başlanılmış cinayət işi hüququn aliliyi prinsipi ilə həll olunacaq. Yayda yerli QHT-lərə və beynəlxalq donor təşkilatlarına qarşı qaldırılmış cinayət işində ACİYF-nin də adı var. Bank hesablarına qoyulmuş həbs davam edir. Ümid edirik ki, bu cinayət işi ədalətlə aparılacaq və ləğvetmə başa çatacaq".

**Ötən gün redaksiyamızla əlaqə saxlayan ACİYF-nin Bakı bürosunun sabiq əməkdaşı Gültəkin Bünyatova vəkil Elçin Sadıqovun fikirləri ilə razılaşmadığını, ACİYF-nin Bakı bürosuna qarşı iddianın onun tərəfindən qaldırıldığını və bu iddia əsasında ACİYF-nin bank hesabına həbs qoyulduğunu bildirdi**: "1997-ci ildən 2013-cü ilə qədər ACİYF-də işləmişəm. Texniki direktor vəzifəsini tutmuşam, ancaq 2013-cü ildə baş mühasib Zərri Hüseynova məni qanunsuz olaraq işdən çıxarıb. Həm məhkəməyə, həm də hüquq mühafizə orqanlarına müraciət etmişəm.

ACİYF-yə mənim işimlə əlaqədar həbs qoyulub. Məhkəmə prosesi olub, məni işimə bərpa edib. Ancaq yoxa çıxıblar. Maykl Holl icraçı direktor idi".

**G.Bünyatova bildirdi ki, bu il sentyabrın 19-da məhkəmə onun əvvəlki işinə bərpa olunması və əməkhaqqının ödənilməsi ilə bağlı qərar çıxarıb:** "Lakin hələ də işə bərpa olunmamışam və pulum ödənilməyib. İş hazırda icraatdadır".

**ACİYF-nin vəkili Elçin Sadıqov isə qəzetimizin əməkdaşına bildirib ki, hazırda G.Bünyatovanın işi ilə bağlı quruma icra vərəqəsi daxil olmayıb. ACİYF-nin bağlanılması ilə bağlı məhkəmə işinə gəldikdə, o bildirdi ki, bu ilin yayında bir neçə xarici donor təşkilata qaldırılan cinayət işində ACİYF-nin Bakı bürosunun da adı var. Vəkil bildirdi ki, hazırda məhz bu işlə bağlı istintaq davam edir.**

❑ KƏNAN

# Sabiq polisin anası nazirdən kömək istəyir

**Bakı sakini Nərgiz Əliyeva redaksiyamıza müraciət edib. N.Əliyeva müraciətində daxili işlər naziri Ramil Usubovdan kömək istəyib. Vətəndaş müraciətində bildirib ki, nazirin qəbuluna düşə bilmir: "Mən Azərbaycan qadını, anası kimi dəfələrlə sizə müraciət etmişəm. Oğlum Əliyev Şəhriyar Arif oğlunun işi il bağlı qəbulunuza düşmək istəmişəm.**

Bu günə kimi mənim sizinlə görüşməyimə imkan yaradılmır. Sizin qəbulunuza düşmək başqa nazirlərdən çox asan olsa da, mənim qarşıma nədənsə sədd çəkilib. Müraciətlərimə cavab verilsə də, bu günə kimi qəbulunuza düşə bilmirəm. Hörmətli Ramil müəllim, oğlumun sizin rəhbərlik etdiyi orqanda işləməsinə çox sevinmişdim. Bizi bu sevincli anları çox yaşamağa qoymadılar. Polisdə işləyən oğlum təngə gələrək 2006-cı ildə özü raport yazaraq işdən çıxdı. 8 ildir dərdimi qoymurlar ki, gəlim sizə deyim. Əminəm ki, siz məni dinləsəniz dərdimə əlac edəcəksiniz. Evimizdən, eşiyimizdən olub Bakıya köçüb kirayələrdə qalırıq". N.Əliyeva deyib ki, ona nazir rayonlara gələndə qəbuluna getmək tövsiyyə olunub: "Ona görə sizdən son dərəcə xahiş edirəm, keçmiş polis anası kimi məni qəbul edin və dinləyin. Oğlum ailəlidir və iki övladı var. Bu vəziyyətdə ona kömək edəcəyinizə inanıram".

❑ EMİL

# Daha bir avtobus qəza törətdi: 2 ölü, 5 yaralı

**Dekabrın 12-də saat 13 radələrində Göygöl rayonunda sərnişin avtobusu qəzaya uğrayıb. Göygöl rayon polis şöbəsindən ANS-PRESS-ə verilən məlumata görə, hadisə Bakı-Qazax-Gürcüstan magistral yolunun 352-ci kilometrliyində qeydə alınıb.**

Belə ki, Hacıməlik kəndi ərazisində sürətlə hərəkət edən "VAZ-2107" markalı avtomaşı sərnişin avtobusuna çırpılıb. Qəza zamanı iki nəfər ölüb, 5 nəfər ağır yaralanıb. Ölənlərdən birinin azyaşlı olduğu bildirilir.Yaralılar Gəncə şəhər Təcili Tibbi Yardım Xəstəxanasına yerləşdiriliblər.

**Faktla bağlı cinayət işi başlanıb, araşdırma aparılır.**

# Heydər Əliyevin vəfatından 11 il ötdü

**Azərbaycanın sabiq prezidenti Heydər Əliyevin vəfatından 11 il ötdü. APA-nın məlumatına görə, dekabrın 12-də Azərbaycanın bütün bölgələrində, o cümlədən paytaxt Bakıda ümummilli lider Heydər Əliyevin anım mərasimləri təşkil olunub.**



Dövlət başçısı İlham Əliyev, dövlət qurumları, siyasi partiyalar, qeyri-hökumət təşkilatları, media orqanları və ictimaiyyətin nümayəndələri bu günlərdə Heydər Əliyevin Fəxri xiyabandakı məzarını ziyarət ediblər.

Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Naxçıvanda anadan olub.

Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilib. 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilib və SSRİ-nin rəhbərlərindən biri olub. O, 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa verib.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşayıb, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilib. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olub.

Heydər Əliyev 1992-ci ildə YAP-ın Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilib. 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçilən Heydər Əliyev iyunun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlayıb. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilib. O, 1998-ci il oktyabrın 10-da keçirilən növbəti prezident seçkilərində yenidən Azərbaycan Respublikasının Prezidenti seçilib. 2003-cü il oktyabrın 15-də keçiriləcək prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina edib.

**Uzun müddət ABŞ-ın Klivlend klinikasında müalicə olunan Heydər Əliyev 2003-cü il dekabrın 12-də dünyasını dəyişib.**



# Rəsul Cəfərova əlavə ittihamlar irəli sürülüb

**Hüquq müdafiəçisi Rəsul Cəfərova əlavə ittihamlar irəli sürülüb. Dekabrın 12-də vəkil Fariz Namazlı "Mediaforum" saytına deyib ki, hüquq müdafiəçisi yenidən dindirilib: "Onun işinə Cinayət Məcəlləsinin 179.3.2 *(mənimsəmə və israf etmə)* və 313 *(vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri)* maddələri də əlavə olunub.**

İnsan Hüquqları Klubunun rəhbəri olan Rəsul Cəfərov avqustun 2-də həbs edilib. İstintaqı Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsi aparır. Ona qanunsuz sahibkarlıq, vergidən yayınma və vəzifə səlahiyyətlərini aşma ittihamları irəli sürülmüşdü.

# Müsavat Partiyasının rəhbərliyi BŞPİ-yə çagırıldı

**Müsavat Partiyasının rəhbərliyinə daxil olan şəxslər, başqan müavinləri Elman Fəttah, Səxavət Soltanlı və Divan üzvü Razim Əmiraslanlı 13 dekabr saat 16:30-a BŞPİ-də çagırlıb. Musavat.com xəbər verir ki, Müsavat Partiyası Beynəlxalq İnsan haqqları günü ilə əlaqədar Azərbaycandakı siyasi məhbuslara azadlıq tələbi ilə 14 dekabr saat 15:00-da "Məhsul" stadionunda mitinq keçirəcək. Mitinq Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılıb. Mitinqin təhlükəsizliyi BŞPİ-nin üzərindədir.**

Partiya rəhbərliyindən saytımıza verilən rəyə görə, güman ki, BŞPİ Müsavat rəhbərliyi ilə mitinqin təhlükəsizliyi məsələlərini müzakirə edəcək.



# Dilqəm Əsgərov və Şahbaz Quliyevin növbəti "məhkəmə"si təxirə salınıb

**Ermənistan hərbçiləri tərəfindən girov götürülmüş Dilqəm Əsgərov və Şahbaz Quliyev üzərində keçirilən saxta "məhkəmə"nin növbəti iclası təxirə salınıb. APA-nın "news.am" saytına istinadən verdiyi xəbərə görə, Ş.Quliyevin "vəkili" Arkadi İsraelyan səhhətində yaranmış problemlə əlaqədar prosesdə iştirak etmədiyi üçün növbəti "məhkəmə" iclası dekabrın 19-na təyin olunub. D.Əsgərov və Ş.Quliyev üzərində qondarma "məhkəmə" prosesi oktyabrın 27-də başlayıb. "ANS-press"in erməni mətbuatına istinadən yaydığı məlumatda isə iclas Şahbaz Quliyev səhhətindəki problemə görə təzirə salınıb. Bundan başqa, qeyd edilib ki, məhkəmədə zərərçəkən qismində çıxış edən Vreja Balayan da məhkəməyə gəlməyib.**

Xatırladaq ki, bir müddət öncə Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev, Həsən Həsənov iyul ayında işğal altında olan Kəlbəcərə yaxınlarının qəbrini ziyarət etmək üçün gediblər. Lakin Şahbaz və Dilqəm Dağlıq Qarabağdakı erməni separatçılar tərəfindən girov götürülüb, H.Həsənov isə qətlə yetirilib. H.Həsənovun meyiti düşməndən alınaraq Bakıda dəfn edilib. Ermənilər öz doğma torpaqlarına səfər etdikləri üçün girov götürdükləri həmyerlilərimizi diversant adlandırırlar. Azərbaycan isə öz vətəndaşlarının qondarma rejim tərəfindən mühakiməsinin qanunsuz olduğunu bəyan edib. Bu səbəbdən də azərbaycanlı girovların barəsində çıxarılacaq istənilən hökm verilməmişdən qanunsuzdur. Beynəlxalq təşkilatlar isə bu məsələnin üstündən sükutla keçməyə üstünlük verirlər.

❑ E.HÜSEYNOV

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

# Facebook statusunu yazıya çevirən... günahkardır?

"...Adətən ölçü-biçili olmayanlar buna görə jurnalisti qınayırlar"

**Son bir il mediada çox geniş yayılan tendensiya sosial şəbəkənin saytların, çap mediasının həyatına müdaxiləsidir. Əslində buna müdaxilə də demək olar, yardım da, dəstək də... Artıq cəmiyyətin tanınmış simaları bu və ya digər hadisə barədə öz fikrini sosial şəbəkə vasitəsilə açıqlayanda bu, xəbərə çevrilir, tirajlanır və daha çox oxucuya çatdırılır.**

İlk baxışda çox normal mənzərə kimi görünsə də, zaman-zaman bu, jurnalistlərlə həmin status sahibləri arasında problemə çevrilir. Ən böyük mübahisə də "Məndən icazəsiz niyə fotomu, açıqlamamı yayırsız" sualının üstündə düşür. Media nümayəndələri hesab edir ki, əgər status sahibi bunu public paylaşırsa, demək, bundan istifadə etmək üçün icazə almağa ehtiyac yoxdur. Amma status sahibi də sosial şəbəkədəki statusunu özəl, əqli mülkiyyət adlandıraraq, onun mediada istifadəsini yolverilməz hesab edir.

*Maraqlıdır media ekspertləri bu barədə nə düşünür? Sözügedən məqamda situasiya kimin xeyrinədir?*

**Media eksperti Xalid Ağalıyev** jurnalistlərin sosial şəbəkələrə istinadlarının şəxsi bilgilərə, fikirlərə müdaxilə adı ilə qınanması doğru deyil. Onun fikrincə, sosial medianın, şəbəkələrin, ümumiyyətlə internetin mənasını doğru-dürüst anlayan şəxslərin belə narahatçılıqları olmur: "Adətən ölçü-biçili olmayanlar, sosial medianın özəllikləri barədə gərəkdiyi qədər bilgili olmayanlar jurnalistləri buna görə qınayırlar. Belə düşünənlər nəzərə almalıdırlar ki, sosial şəbəkələr hamıya açıq və qapalı (və ya özəl insanlara açıq) tutula biləndir. Düşüncələrinin tirajlanmasından əndişəli olanlar özlərini sosial şəbəkələrin hamıya açıq bölümünə qapamalıdırlar. Açıq bölümdəsənsə bunun məsuliyyətini anlamaq zərurəti yaranır".

**X.Ağalıyev dedi ki, bu mövzunun iki aspekti var. Onun sözlərinə görə, hüquqi baxımdan heç bir problem görünmür:** "Çünki qanunvericilik interneti də KİV hesab edir. Hər hansı rəyin, statusun internetdə, sosial şəbəkədə və başqa vebresursda yayılması artıq onun KİV-də yayılması deməkdir. Hansısa jurnalistin sosial şəbəkədən qaynaqlanaraq ordakı bilgini öz qəzetindən, televiziyasından yayması heç bir hüquqi dilemma doğurmur. Digər aspekt peşəkarlıq, etika məsələsidir, yəni "əldə etdiyin bilgini necə yaymaq" məsələsi. Peşəkarlıq tərəfsizliyin, çoxsəsliliyin təmin olunmasını tələb edir. Peşəkar medianın bir status və ya sosial şəbəkədəki hansısa mülahizəyə yer verməsi o zaman doğru olur ki, onun ictimai önəmi olur. Həm də peşəkarlıq mülahizənin, rəyin, bilginin mövzu kimi istifadə edilməsini tələb edir. Ancaq rəylərin olduğu kimi tirajlanmasında hüquqi problem yoxdur".

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 304 (6013) 13 dekabr 2014



## Yazarımız Tofiq Yaqubluya Azadlıq!



## "Ərəb baharı"ndan niyə İŞİD doğuldu...

Kənan RÖVŞƏNOĞLU

### Yaxın Şərqin inqilab dalğasının radikal islam hərəkatlarına çevrilməsinin səbəbləri

**2011-ci il fevralın 11-də axşam saatlarında Misirin keçmiş kəşfiyyat naziri (həmin vaxt müvəqqəti baş nazir idi - K.R) Ömər Süleyman kameralar qarşısına keçib, Hüsnü Mübarəkin istefa verdiyini elan etdi. Bu kadrlara "Euronews" kanalında canlı yayında baxırdım. Hətta kövrəldim, çünki ekranın digər yarısında Təhrir meydanında kütlənin sevinc qışqırıqları vardı. Həmin gün ərəb dünyasında yeni mərhələ başlayırdı.**

Ötən həftə Misirin keçmiş diktatoru Hüsnü Mübarək məhkəmədə bəraət alaraq azadlığa çıxanda isə fərqli hislər hakim idi mənə. Böyük ümidlərlə başlayan "ərəb baharı" rəsmən başa çatdı. Misirdə yenidən hakimiyyəti ələ keçirən Mübarək komandası keçmiş liderlərinə sədaqət nümayiş etdirərək, ona məhkəmə vasitəsilə bəraət (məhz bəraət, əfv və ya amnistiya deyil - K.R.) verdilər. Misir ərəb dünyasının açar ölkəsidir, əhalisi 90 milyon nəfərə çatan ölkə həm coğrafi yeri, həm ərazisi və insan sayına görə 300 milyon nəfər əhalini və 22 dövləti ehtiva edən ərəb dünyasında hər zaman aparıcı rolu daşıyıb. İnqilab Tunisdə başlasa da, həlledici mərhələ Misirdə oldu. Amma bu, artıq arxada qalan mərhələdir.

Dekabrın 14-də Tunisdə küçə ticarətçisi Məhəmməd Buəzizinin özünü yandırması ilə başlayan "Yasəmən inqilabı" və ya sonrakı adı ilə "ərəb baharı"nın 4 yaşı tamam olur. "Ərəb baharı" başladığı ilk ildə 4 diktatorun - Zeynəlabidin bin Əli (Tunis), Hüsnü Mübarək (Misir), Müəmmar Qəzzafi (Liviya) və Əli Abdullah Salehin (Yəmən) hakimiyyətinin devrilməsi ilə nəticələndi. Ancaq bu gün inqilab coğrafiyasında başqa "küləklər əsir". Liviya, Yəmən, Suriya, İraq və qismən də Misirdə radikal islamçıların terror təşkilatları fəallıq edir, bölgə demək olar ki, qan gölünə çevrilib.

Nə baş verdi? Demokratiya, insan hüquqları və daha yaxşı azad həyat uğuruna başlayan inqilabların arxasınca İŞİD və ona bənzər qruplaşmalar ortaya çıxdı. Halbuki ilk başda heç bir ölkədə radikal islam şüarları yox idi. Xalqlar yalnız diktatura rejimlərdən xilas olmaq, azad və ədalətli cəmiyyət qurmaq arzusu ilə meydanlara çıxmışdılar. Lakin 4 il sonrakı nəticələr tamam fərqlidir. İndi meydanlarda İŞİD və onun tipində terror, silahlı qruplaşmalar var. Yeri gəlmişkən, "ərəb baharı"ndan "sağ çıxan" yeganə ölkə olan Tunisdə daxili müharibə olmasa da, hazırda Yaxın Şərqdəki silahlı qruplarda savaşan ən çox xarici ölkə savaşçıları məhz Tunisdəndir. Yəni öz ölkələrində savaş meydanı qazana bilməyən militanlar çarəni İraq və Suriyada döyüşməkdə tapıblar. Bu kəskin dəyişikliyin isə bir neçə mühüm səbəbi oldu.

Birincisi, inqilab başlayan ölkələrdə uzun illər davam edən avtoritar rejimlər siyasi institutları məhv etdiyi üçün (yalnız Tunis və Misirdə qismən də olsa siyasi partiyalar və QHT-lər qalırdı - K.R.) başlayan inqilabi proseslərin fonunda yaranmış təşkilatlanma boşluğunda radikal islamçılar ortaya çıxdılar.

İkinci amil rejimlərin radikal islamçıları meydana çıxaran hərəkətləri oldu. İlk olaraq Müəmmar Qəzzafi Liviyada üsyan edənlərə qarşı silahla çıxdı. Nəticədə Liviyada hökumətə qarşı silahlı müxalifət formalaşdı və aydın məsələdir ki, müsəlman ölkəsi olan Liviyada silahlı qrupların bir hissəsi yerli və bölgə ölkələrindən gələn islamçılar idi. Daha sonra bu proses Suriyada baş verdi. Həm Liviyada, həm də Suriyada hakimiyyətə qarşı silahlı müxalifətə xarici ölkələr də dəstək verdi və nəticədə daha fəal və bu hadisələrə "müqəddəs cihad" kimi yanaşan islamçı qrupların sayı və gücü sürətlə artdı. Çünki həmin vaxt Qərb dövlətləri də diktatorların devrilməsi üçün silahlı müxalifətə - dinə yanaşmasından asılı olmayaraq - dəstək verdi. Qərb yalnız iş-işdən keçəndən sonra radikal islamçı qrupların fərqində oldu, onda isə artıq gec idi.

Radikal islam amili müsəlman ölkələri üçün həmişə aktual problem olub. Çünki sosial ədalətsizliyin, yoxsulluğun, siyasi avtoritarizmin mövcud olduğu yerdə istər-istəməz alternativ güc özünü fəda etməyə hazır olan radikal İslam olub. Siyasi iştirakdan, özünü təsdiqləmək imkanından, normal şərtlərdə həyatını yaşamaqdan məhrum qalan müsəlmanların (xüsusən də gənclər) üz tutacağı ünvan radikal islamdır. Bu "təcrübəni" ötən əsrin 60-70-ci illərində Əfqanıstanda başlayan müharibədə ortaya çıxan "əl-Qaidə" nümunəsi təsdiqləyib. Yaxın Şərqin avtoritar müsəlman ölkələrində əzilən, basqı altında qalan müsəlmanlar radikal islam şüarları altında Əfqanıstandakı "cihada" qoşuldular və "əl-Qaidə" kimi təşkilatlar yarandı.

**"Ərəb baharı"nın nəticəsizliyi, inqilabın siyasi intriqalara çevrilməsi İŞİD kimi tarixi xilafət qurmaq ideyasına söykənən qruplara rəğbət yaratdı. Yoxsa ki, "ərəb baharı"nda meydanlara çıxan xalqlar radikal islama əsaslanan "xilafət" deyil, normal cəmiyyət qurmağı hədəfləyirdilər.**

# "Bu, Azərbaycan-Gürcüstan dostluğuna dəyən zərbədir"

## Zəlimxan Məmmədli Gürcüstana girişinin yasaqlanmasına dair mətbuat konfransı keçirdi; tədbirdə "Borçalı" Cəmiyyəti sədrinin istefası tələb olundu...

**Dekabrın 12-də Beynəlxalq Mətbuat Mərkəzində "Borçalı" Cəmiyyətinin rəhbərliyi mətbuat konfransı keçirib. Tədbirin keçirilməsinə səbəb "Borçalı" Cəmiyyətinin sədri Zəlimxan Məmmədli və müavini Salman Murquzovun Gürcüstana girişlərinin yasaqlanması ilə bağlı olub. "Borçalı" Cəmiyyətinin sədri Gürcüstana girişinə qadağa qoyulması ilə bağlı iştirakçılara geniş məlumat verib:**

"Bu gün tariximizdə önəmli günlərdən biridir. "21 Azər Hərəkatı"nın yarandığı gündür. Eyni zamanda tariximizdə önəmli yer tutan simalardan biri olan Heydər Əliyevin vəfat etdiyi gündür. Bu günü hörmətlə anırıq. Cəmiyyətin sədri olaraq sizinlə hər zaman yaxın təmasda olmuşam. Bunun üçün zaman-zaman qınağa tuş gəlmişəm. 2009-cu ildə Gürcüstandakı soydaşlarımızın problemlərinin bu ölkənin hökuməti ilə birgə sosial problemləri həll etmək düşüncəsi ilə yola çıxdıq. Daim Gürcüstanın şərəfini qaldırmışıq. Türkiyədəki Böyük Birlik qurultayında Gürcüstan bayrağını türk dövlətlərinin bayraqları sırasına qoydum və protokola yazdırdım. Bu addımımız rəğbətlə qarşılandı. Türk kanallarında Gürcüstanla bağlı müsbət verilişlər getdi. Daim separatçılığın əleyhinə olduq. Təəssüf ki, Gürcüstanın bəzi siyasi dairələri 3 ildir bizi təqib edirlər. Hətta elat tədbirlərimizə mane olmağa çalışırdılar. Nəticə etibarı ilə bu ilin iyununda müavinim Salman bəy saxlanıldı. Anladıq ki, hədəf Salman bəy deyil, "Borçalı" Cəmiyyətidir. Nəhayət, bu il oktyabr ayının 19-da ailəmlə Gürcüstana toya gedəndə keçid məntəqəsində saxladılar. Uzun söhbətlərdən sonra mənim Gürcüstana girişimin qadağan olunması barədə mənə bilgi verirlər. Biz ardıcıl olaraq Gürcüstan və Azərbaycanın rəsmi qurumlarına müraciət etdik. Girişimin qadağan olunması səbəbi məlum olur. Gürcüstan qanunvericiliyinin 11-ci maddəsində göstərilir ki, dövləti təhdid edənlər ölkəyə buraxılmır. Çünki asayışı pozurlar, insanları narahat edirlər. Bu çox ciddi ittihamlar idi. Bunu Azərbaycan-Gürcüstan dostluğunun səmimi olmaması kimi qiymətləndirir, Borçalıdakı soydaşlarımızın fəal olmalarına dözümsüzlük kimi qələmə veririk. Həqarətli yanaşmadır. Bu qərarı verən orqanları qınayırıq. Öz doğma yurdumuza maneəsiz getməyimizi istəyirik. Bunu gürcü hökumətindən tələb edirik. Əgər mən Gürcüstan əleyhinə bir hərəkətə yol versəydim, üzr istəyərdim. Müəyyən bir korrupsioner qrupunun hakimiyyətə gəlməsi belə vəziyyətin yaranmasına səbəb oldu. Bu, Azərbaycan-Gürcüstan dostluğuna dəyən zərbədir. Nə qədər gec deyil, bu xəta aradan qaldırılmalıdır. "Borçalı" Cəmiyyəti heç bir təxribata getməyəcək".





**"Borçalı" Cəmiyyətinin üzvü, sabiq deputat Nəsib Nəsibli** çıxışında yasaq qərarının heç bir məntiqə sığmadığını qeyd edib: "Keçən dövr ərzində cəmiyyətimizin siyasi xətti özünü doğrultdu. Təəssüflər olsun ki, yasaq qərarını verənlər bunu görmürlər. Zəlimxan Məmmədlinin Gürcüstana girişinə qadağa qoyulması düşmənçilikdir. Başqa bir məntiqi yolu yoxdur".

Cəmiyyətin digər üzvü, professor Telman Əliyev dedi ki, Zəlimxan Məmmədlinin fəaliyyətində Gürcüstana qarşı yalnız hörmət görüb.

"Borçalı" Cəmiyyətinin qurucularından olan Eyvaz Borçalının çıxışı isə narazılıq doğurdu. O, mətbuat konfransının keçirilməsini tələskənlik kimi qiymətləndirdi: "Yaşanan hadisələr hamıdan çox mənə ağırdır. Zəlimxan bəy etiraf etməliyəm ki, tələskənlik edib. Əgər sədr və müavin Gürcüstana buraxılmırsa, bu cəmiyyətə ləkədir. Bu məsələni borçalılarla birlikdə həll etmək daha məqsədəuyğun idi. Öz hüquqlarını qoruya bilməyən şəxs böyük bir cəmiyyətə rəhbərlik edə bilməz. Siz müəyyən müddət istefaya getməlisiniz. Haqlı olduğunuzu sübut edəndən sonra qayıda bilərsiz. Başqa bir yol görmürəm. Bu məsələni cılızlaşdırmaq qətiyyən düzgün deyil. Belə şou yaratmaq lazım deyildi".

Zəlimxan Məmmədli deyilən iradlara belə cavab verib: "Hesab edirəm ki, media ilə təmas qurmaq səhv addım deyil. Mətbuat Azərbaycanın güzgüsüdür, düzü deyən ən böyük institutlardan biridir".

Baş verən yasaq qadağası ilə bağlı **"Qafqaz" Araşdırmalar Mərkəzinin rəhbəri Kamran Ramazanlı** fikirlərini aldıq. O, mövqeyini bu cür ifadə etdi: "Borçalı" Cəmiyyətinin sədri Gürcüstan hakimiyyəti üçün təhlükəli adam deyil. Əksinə Gürcüstan hakimiyyətini daim tərifləyib. Məncə burada başqa səbəblər var. Yasaq qərarının aradan götürüləcəyi barədə bir söz söyləmək çətindir".

❑ Cavanşir ABBASLI
Fotolar müəllifindir

# 102 saylı Samux-Şəmkir seçki dairəsində dərəbəylik

## Bələdiyyə üzvlüyünə namizəd olan müsavatçı Məzahir Pənahova müraciət edib

**Müsavat Partiyası Samux rayon təşkilatının sədri, 23 dekabr bələdiyyə seçkilərində 102 saylı Samux-Şəmkir seçki dairəsindən Samux bələdiyyə üzvlüyünə namizəd Etibar Əkbərov Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahova rəsmi ərizə ilə müraciət edib. E.Əkbərov ərizəsinin surətini "Yeni Müsavat" qəzetinə göndərib. Şikayət ərizəsində Etibar Əkbərov MSK sədrinə 102 saylı DSK-nın sədri tərəfindən qanunsuzluğa məruz qoyulduğunu bildirib. O qeyd edib ki, 50 imza toplayıb DSK-ya təqdim edib və namizədliyi rəsmən qeydə alınıb. Lakin DSK onun qeydiyyata alınma vəsiqəsini vermir.**

Bələdiyyə üzvlüyünə namizəd E.Əkbərov daha sonra bildirib ki, dekabrın 4-də 102 saylı DSK-nın sədri Bayram Qasımova müraciət edərək 102 saylı Samux-Şəmkir seçki dairəsinin əhatəsində olan məntəqə seçki komissiyaları üzvlərinin tərkibi-siyahısı və qeydiyyata allınmış namizədlərin siyahısını istəyib. Bayram Qasımov isə onun qanuna əsaslanan xahişinə məhəl qoymayıb: "Bayram Qasımov siyahıları verməkdən imtina etdi. Buradan isə məlum olur ki, seçki komissiyalarının tərkibi ilə bağlı qanun pozuntuları var. Mən bilirəm ki, Samux şəhərində, həmçinin başqa bir neçə qəsəbə və kəndlərdə məntəqə seçki komissiyalarının sədrləri və üzvləri 3 dəfə bələdiyyə sədri, həmçinin üzvü olmuş, indi də 4-cü dəfə namizədliyi qeydə alınmış şəxslərin oğlu, qızı, yaxın qohumlarıdır. Hətta 3 dəfə bələdiyyə üzvü olmuş, indi də qeydiyyata alınmış namizədin oğlu 102 saylı DSK-nın katibidir. Bundan başqa Samux rayon İcra Hakimiyyətinin şöbə müdirinin həyat yoldaşı, Samux rayonunun deputatının köməkçisinin anası 1 saylı məntəqə seçki komissiyasının sədridir, eyni zamanda 1 saylı Samux Şəhər Orta məktəbinin direktorudur.

Samux şəhər bələdiyyəsi sədrinin qızı həm 2 saylı tam orta məktəbin direktorudur, həm də Samux şəhər 2 saylı məntəqə seçki komissiyasının sədridir.




2004-cü ildə keçirilmiş bələdiyyə seçkilərində 1 qəsəbə və 2 kənd bələdiyyələrində saxtakarlığa görə seçkinin nəticələri MSK tərəfindən ləğv olunmuşdu. Həmin seçkini keçirən komissiya üzvləri qanunla komissiya üzvlüyündən uzaqlaşdırılmalıdır. Amma saxtakarlıq etmiş həmin komissiya üzvləri indi də məntəqə seçki komissiyasının üzvü olaraq qalmaqdadırlar".

**Etibar Əkbərov qanun pozuntularını xatırlatdıqdan sonra Məzahir Pənahovdan 102 saylı Samux-Şəmkir seçki dairəsinin əhatəsində olan məntəqə seçki komissiyaları üzvlərinin və bələdiyyə üzvlüyünə namizədlərin siyahısının ona verilməsi üçün DSK sədri Bayram Qasımova göstəriş verməsini xahiş edib.**

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 304 (6013) 13 dekabr 2014



# Sabitliyə yönələn mifik təhlükə

Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**Bircə anlığa yaxın keçmişə - 10-12 il əvvələ düşüncə səyahəti edin, dəyişən və dəyişməyən nə varsa xəyal süzgəcindən keçirin. Ən böyük qayğımız - torpaqlarımızın işğaldan azad edilməsi yönündə heç bir uğur qazanılmayıb. Bu istiqamətdə irəliyə doğru bircə addım da atılmayıb. Amma bunun əvəzində öyünmək üçün yetərincə ifadələr sıralanıb. Hansı hakimiyyət mənsubunu dindirsən mifik uğur kimi bu illər ərzində sabitliyin qorunmasından danışacaqlar. Əslində isə ölkədaxili duruma ən böyük təhlükə mənbəyi dəyişməz qalır. Daxili sabitlikdən danışanda da bilərəkdən bunu arxa plana keçirirlər.**

Gerçək durum necədir? Ölkə daxilində həyat axarını poza biləcək hansısa olay və ya buna cəhd olubmu? Seçkilər bir qayda olaraq hakimiyyətin yazdığı ssenari üzrə həyata keçirilib. Müxalifətin zəif, dağınıq şəkildə seçkilərə qatılmağı da siyasi rejimin arzuladığı demokratiya görüntüsü yaratmağa xidmət edib. Hətta dövlət rəsmiləri də demokratiyanın mövcudluğuna nümunə kimi müxalif siyasi partiyaları, barmaqla sayılacaq qədər tənqidçi mətbuatı nümunə göstəriblər. Daim hiss olunub ki, etirazçı elektoratın mövcudluğu da ölkəyə demokratiya qrimi vurmaqda kara gəlib...

Hətta parlament seçkilərində qalib gələn, adı siyahıda olmadığına görə millət vəkili mandatı ala bilməyənlərin AİHM müraciəti, onların haqlı olduğu haqda çıxarılan qərarlar da siyasi mənzərəni dəyişməyib. Ən yaxşı halda kəsilən cərimələr dövlətin cibindən ödənilib. Bununla da mübahisələrə son qoyulub.

Bəs hər şey əvvəlcədən düşünüldüyü kimi həyata keçirilən bir ölkədə daim fərqli düşünənlərin həbsi nədən bir an da səngiməyib. Rejimə yönələn real təhlükə olmasa da siyasi məhbus sarıdan ölkədə qıtlıq olmayıb. Həm də onların sırası, çeşidi də hakimiyyətin niyyətlərinə uyğun şəkildə dəyişib. Müxalifətin indiki durumu ilə müqayisədə nisbətən fəal olduğu dövrdə həbs olunanların əksəriyyəti siyasi partiya üzvləri idi. 2003-2008-ci illərdə müxalifəti fəal kəsiminin həbsi pik həddə qərarlaşmışdı. Növbəti seçkilərin tünd çalarda keçməməsi üçün onlar azad edildilər. Amma bu dəfə də seçki oxşar istiqamətdə keçdi... Hakimiyyət dairələrinin ən böyük uğuru oldu ki, daha müxalifət indiki formatda onun üçün heç bir narahatlıq yaratmırdı.

Amma siyasi məhbussuz da ötüşmədi və sabitliyə yeni təhlükələr "aşkar" edildi. Siyasi müxalifət hədəfə alınanda yenicə yaranan QHT-lər hakimiyyətin diqqətindən kənarda qalmışdı. Onların fəaliyyəti yolunda da ciddi manеələr yox idi. Gec də olsa rejim QHT-lərin "qayğısına" qaldı, onlara nəzarət etmək üçün ona tabe olan qurum yaratdı. Qısa müddətdən sonra QHT-lər doğmalara və yadlara bölündü. Sayı az olsa da "yadlar" hüquqi müstəvidə hakimiyyətin planlarını pozurdular. Məhz onların sayəsində baş verən həbslər dəyərlədirilirdi. Bir çox siyasi məhbus onların ardıcıl səyi nəticəsində azadlığa qovuşa bildi...

Bu dəfə isə həbslərin dalğası onlara tərəf yönəldi. İndi hansısa QHT rəhbərinin və ya fəalının hakimiyyətin bəyan etdiyi sabitliyi poza biləcəyini iddia etmək ən azından acı kinayə ilə qarşılanır. Onlar nə elə gücə, nə də səlahiyyətə malik deyildilər. Buna görə də onları həbs edəndə irəli sürülən ittihamlar havadan asılı qalır, ironik təəssürat yaradır. Onları səlahiyyət həddini aşmaq, vergidən yayınmaq, hətta vətənə xəyanət ittihamları ilə həbsxanalara atmaq köməyə yetir.

Həbs konveyeri var gücü ilə işləyir. Dövlət qurumları ilə işbirliyi olmayan, strateji mənbələrə əli yetməyənin vətənə xəyanətdə ittiham edilməyi, hansı sirləri satdığı isə cavabsız qalır. Lap məhkəmə keçirilsə belə cavablandırılmayacaq.

Bu qədər həbslər sıralanandan sonra rejimin qazancı nədir? Bir qayda olaraq, tənqidlərə hədəf olur, beynəlxalq təşkilatların hesabatlarında adı bədnam siyahıya düşür. Doğrudanmı daxildə qorxu xofunu daim yaşatmaq üçün həbslərdən kəsərli bir vasitə yoxdur. Nədən məhz insanların daim həbs olunmaq təhlükəsi ilə üz-üzə qalması sabitliyin qarantı sayılır... Axı cəmiyyət ilk baxışdan seyrçi mövqedə dayansa da, gerçək səbəbləri görür, uydurma ittihamlar hakimiyyətin özünə qarşı yönəlir.

**Belə " sabitlik" sonsuza qədər davam edəcəkmi? Axı qorxudanın özü də hədəfdə olduğunu hiss edib, qorunmaq üçün daha sərt üsullar arayır.**

# Qərib Məmmədov və "Azərsu"nun birgə 12 milyonluq maxinasiyası

## Komitə sədrinin dəstəyi ilə ASC Göyçayda sahibkarın mülkünü mənimsəyib

**Sahibkarlıq fəaliyyəti ilə məşğul olan şikayətçi Mayılova Minayə Seyidaga qızı redaksiyamıza şikayət məktubu göndərib. O bildirir ki, 7 ilə yaxındır Göyçay rayonunda mülkiyyətində olan torpaq sahəsi Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin özbaşınalığı nəticəsində "Azərsu" ASC-nin istifadəsinə verilib və orada özbaşına tikililər inşa edilib.**





Qərib Məmmədov

Vətəndaş bununla bağlı 6 ay əvvəl Göyçay Rayon Məhkəməsində "qanunsuz istifadəyə son qoyulması və özbaşına tikililərin sökülməsi" tələbinə dair iddia qaldırıb.

Şikayətçi bildirir ki, 2007-ci ildə "Azərsu" ASC öz anbar və binalarını inşa etdirmək üçün onun və başqa şəxslərin torpaqlarını zəbt edib: "Bu özbaşınalıqlar Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri Qərib Məmmədovun himayəsi ilə davam etdirilib. "Azərsu" planlarını həyata keçirmək üçün bir çox qurumlara rüşvət verib. Nəticədə onlara olunan xəbərdarlığa baxmayaraq, bu günə qədər başqasının mülkiyyətindən çox arxayın şəkildə istifadə edirlər. Rüşvət hesabına məhkəmə çəkişmələrini də süni şəkildə uzadır, ekspertiza rəylərinin verilməsinin qarşısının alınmasına nail olurlar. Məsələn, Göyçay Rayon Məhkəməsinin sədri Fərhad Əfəndiyevin icraatında olan 2-(046)-107/14 saylı mülki işin baxılması bir çox bəhanələrlə yubadılıb. Həmin iş üzrə 08 avqust 2014-cü il tarixli qərardadla təyin edilmiş məhkəmə tikinti-texniki ekspertizası mütəxəssisi öz vəzifəsinə etinasız yanaşıb. Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin mütəxəssisləri isə əraziyə baxış keçirmiş olsalar da, tələb olunan mütəxəssis rəyini və sənədləri ekspertizaya təqdim etməyiblər. Bu səbəbdən məhkəmə tikinti-texniki ekspertizası qərardadını icrasız saxlayıb və mülki iş materialları geri qaytarılıb". Sahibkar Mayılova deyir ki, başına gələnlər "Azərsu"nun 12 milyon manatlıq talama oyunun bir hissəsidir: "Bu qurum indiyədək həyata keçirdiyi qanunsuz işlərini və talançılığını ört-basdır etməyə 5 milyon manat rüşvət paylayıb. Belə bir məbləğdə rüşvət verməkdən çəkinməyən "Azərsu" ASC ilə hansı formada və nəyin mübarizəsini apara bilərəm? "Azərsu" ASC-nin Göyçay rayonunda olan fəaliyyəti yoxlanarsa, aşkar olunar ki, milyonlarla manat pulu torpaq alınmasına görə büdcədən silmiş olsalar da, bu günə qədər bir qarış torpağın rəsmi sənədi belə yoxdur. Ölkə başçısı cənab İlham Əliyevdən xahiş edirəm ki, cavabdeh şəxslərdən bu talançılıqlarının hesabının sorulması üçün göstəriş versin. "Azərsu"dan soruşulsun ki, dövlət başçısının sərəncamıma əsasən ayrılmış pullarla qurum nə üçün torpaq sahəsi almayıb və vətəndaşların mülkiyyətini zəbt etməklə orada anbar və digər obyektlər tikiblər?

**Cənab prezident! Hüququ pozulmuş bir sahibkar kimi şikayətimi nəzərə alaraq, qanunsuzluqlara əl qoymuş Qərib Məmmədov və "Azərsu" rəhbərliyinin cəzalandırılmasını, hüquqlarımın bərpasına göstəriş verməyinizi sizdən xahiş edirəm".**

**M.MAHRIZLI**

# Azərbaycanda "üsyan məşqləri"nin arxasında kim durur?

## Kənardan görünən budur ki, bəzi məmurlar ali siyasi hakimiyyət üçün bir tələ hazırlamaq, qanlı olaylara yol açmaq istəyirlər; Gəncədə və digər bölgələrdə xalq etirazları yarıgizli, yarıaçıq formada davam edir; ABŞ hadisələrin mərkəzində dayana bilərmi...

**Bu dəfə xalq Gəncədə özbaşınalıq edən məmurlara etiraz etdi. Xəbər verdiyimiz kimi, dekabrın 10-da Gəncənin Avtozavod qəsəbəsi adlanan ərazisində Nizami Rayon İcra Hakimiyyətinin əməkdaşları "qanunsuz tikililəri" sökərkən həmin qəsəbədə məskunlaşmış Kəlbəcər rayonundan olan köçkünlər etiraz əlaməti olaraq Gəncə-Göygöl avtomobil yolunu bağlamağa cəhd göstəriblər.**

Cəhdin qarşısı alınarkən Gəncə Şəhər Baş Polis İdarəsinin 5 əməkdaşı, orada olan Nizami Rayon İcra Hakimiyyətinin başçısı Nizami Hacıyev və müavini xəsarət alıb. Gəncə Şəhər Baş Polis İdarəsinə məxsus 2 ədəd xidməti avtomobilin şüşələri sındırılıb.

Etirazçılar barəsində cinayət işi açılıb və artıq həbs ediliblər. Bu şəxslərin hər biri dövlət qulluqçusuna qarşı mövqe nümayiş etdiyinə və əhalini təxribata çəkdiyinə görə məhkum oluna bilərlər.

Gəncədə baş verənlər kifayət qədər ciddi və düşündürücü siqnaldır. Səbəbin nə göstərilməsindən asılı olmayaraq, görünən bir həqiqət var - xalq 20 illik əzablı həyatdan artıq bezib. Bölgələrdə əhali yerli məmurlardan tutmuş, mərkəzi hakimiyyətə qədər hamıdan narazıdır.

Bu tendensiya ilk dəfə Qubada özünü göstərmişdi. Hakimiyyət "Quba dərdləri"ndən düzgün nəticə çıxarda bilmədi və nəticədə İsmayıllı alova büründü.

Quba üsyanından sonra İsmayıllıda bənzər proseslərin baş verməsi, indi isə Gəncədə baş verənlər "bu proseslərin arxasında kim durur" sualını aktuallaşdırır. Bunu "təbii xalq etirazları" adlandırmaq mümkündür. Lakin o da istisna deyil ki, proseslərin alt qatında tamamilə başqa məqamlar dayana bilər.

Bölgələrdə vəziyyət eyni dərəcədə ağırdır. Bölgə rəhbərliyi yerli əhalini qul yerinə belə qoymur, addımbaşı təhqir edir, şərləyir, həbs etdirir.

Lakin Qubada və İsmayıllıda olduğu kimi, Gəncədə də kimlərsə tamamilə fərqli situasiya yaratmaq arzusunda idilər.

Kənardan görünən budur ki, bəzi məmurlar ali siyasi hakimiyyət üçün bir tələ hazırlamaq, qanlı olaylara yol açmaq istəyirlər.

Gəncədə və digər bölgələrdə xalq etirazları yarıgizli, yarıaçıq formada davam edir. Hansısa zaman kəsiyində qanlı sonluqla bitəcək olayların baş verəcəyi də istisna deyil. Belə etirazların birində xalqa atəş açılsa, bu, kifayət edəcək ki, ölkədə hər şey dəyişsin. Mövcud komanda sabitliyin pozulmasında katalizator rolu oynamaqda davam edir. Əgər dövlət başçısı tezliklə bu komandadan xilas olmayacaqsa, özü üçün son dərəcə ciddi problemlər yarada bilər.

Bir sözlə, Gəncə hadisələri hakimiyyətdə tam çaşqınlıq yaratdı. Xalq kütlələri heç kəsin gözləmədiyi bir zamanda etirazlara qalxa bilər. Baş verənləri yalnız məmurlar arası mübarizə kimi qələmə vermək düzgün deyil. Ölkə tədricən inqilaba sürüklənir.




Başqa sual isə ondan ibarətdir ki, "ərəb baharında" olduğu kimi, ABŞ hadisələrin mərkəzində dayana bilərmi? Bu suala da cavab bir mənalı deyil. Bir tərəfdən, Qərb bölgədə yaranan vəziyyəti təhlil edərək Azərbaycanda sabitliyin pozulmasına imkan verməmək istəmir, ən azı ona görə ki, ona sabit Azərbaycan lazım olacaq. Lakin Azərbaycan hakimiyyətinin etibarlı müttəfiq rolunun öhdəsindən gələ bilməməsi Qərbi rəsmi Bakıya təzyiqlərini artırmağa vadar edir.

Bir sözlə, Azərbaycanda həlledici siyasi mübarizə başlayır. Əgər ölkədə köklü dəyişiklik olmayacaqsa, xalq kütlələrinin qarşısına çıxan hər şeyi dağıdan, əzən hakimiyyətə qarşı üsyana qalxmaqdan, mübarizəni siyasi müstəvidən küçə və meydanlara transfer etməkdən başqa yolu qalmayacaq. Bölgələrdə əhalinin narazılıqlar püskürdüyü bir zamanda isə müxalifəti əzmək hakimiyyətə sərf eləmir.

Kənardan görünən odur ki, Quba, "Binə", İsmayıllı, Gəncə üsyanları bir məşq təsiri bağışlayır.

Parlament seçkilərinə az vaxt qalmış daha irimiqyaslı hadisələrin ola biləcəyi ehtimal olunur. Bunun qarşısını zor müstəvisində almaq problemləri daha da dərinləşdirməkdir. Yeganə yol - islahatlara başlamaqdır. Əks təqdirdə, Azərbaycan özü boyda "barıt çəlləyi"nə çevrilə bilər.

**Gəncədə baş verənlər məmurlara bir daha "zülm etməyin" mesajını vermiş oldu. Zülm ərşə dirənəndə xalq heç kəsə və heç kimi baxmayaraq, öz sözünü deyir...**

**Azər RƏŞİDOĞLU**

YENİ MÜSAVAT
N 304 (6013) 13 dekabr 2014


Mədət Quliyev

# Xədicə İsmayılın müdafiəsində yeni mərhələ

## Amerika susmur, Mədət Quliyev "jurnalistə qarşı təzyiq yoxdur" deyir, Tural Mustafayevdən isə yeni açıqlamalar var

**Dekabrın 12-dən araşdırmaçı jurnalist Xədicə İsmayılın müdafiəsinə Siyasi Məhbusların Hüquqlarını Müdafiə Komitəsi də qoşulacaq. Bu haqda komitənin üzvü Şahvələd Çobanoğlu məlumat verib. O, deyib ki, Xədicə İsmayıl jurnalist fəaliyyətinə və ictimai mövqeyinə, yüksəkvəzifəli məmurların gizli biznesi və korrupsiya əməlləri haqda araşdırmalarına görə qisas alınmaq üçün şərlənib: "Ona qarşı saxta ittiham irəli sürülsə də, həbsi birmənalı olaraq siyasi motiv daşıdığından onun ictimai müdafiəsi digər siyasi məhbusların hüquqlarını müdafiə edən komitənin çərçivəsində aparılacaq".**

Siyasi Məhbusların Hüquqlarını Müdafiə Komitəsi hüquq müdafiəçisi Leyla Yunus həbs edildikdən sonra yaradılıb və bütün digər siyasi məhbusların müdafiəsini aparır. Komitənin həmsədrləri Milli Şuranın sədri Cəmil Həsənli və hüquqşünas Vidadi Mirkamaldır.

Komitənin tərkibində Xədicə İsmayılın müdafiəsi üzrə işçi qrup formalaşdırılıb. İşçi qrupda jurnalistlər Rövşən Hacıyev, Şahvələd Çobanoğlu, Əfqan Muxtarlı, Natiq Cavadlı, gənc fəal Ülvi Həsənli təmsil olunurlar.

İstintaq orqanlarında və məhkəmələrdə Xədicə İsmayılın hüquqi müdafiəsi ilə ilk gündən vəkil Elton Quliyev məşğuldur. Dekabrın 11-dən vəkillər Yalçın İmanov və Fariz Namazlı da jurnalistin müdafiəsinə qoşulub.

***

ABŞ-ın nüfuzlu qəzetlərindən "Washington Post" X.İsmayılın həbsindən yazıb. Dekabrın 11-də qəzetin internet səhifəsində yerləşdirilmiş məqalədə qeyd olunur ki, Xədicə İsmayılın jurnalist fəaliyyəti hər bir ölkə üçün vacibdir, ancaq Azərbaycan kimi neftlə zəngin sultanlıqda xüsusi cəsarət tələb edir.

***

"QHT nümayəndələri Leyla Yunus saxlanılan təcridxanada olublar və onun səhhətində heç bir problemin olmadığını görüblər"

"Sülh və Demokratiya İnstitutunun həbsdə olan sədri Leyla Yunus istintaq təcridxanasında hamı ilə birgə qaydalara uyğun olaraq saxlanılır. Bəzi dağıdıcı mətbuat orqanları isə həqiqətə uyğun olmayan məlumatlar yayırlar. Gülünc məsələlər irəli sürülür ki, guya ona yemək vermirlər. Bu deyilənlər hamısı yalandır".

APA-nın məlumatına görə, bunu Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin rəisi, general-leytenant Mədət Quliyev Leyla Yunusun saxlanılma şəraitindən narazılıq olması, ona qarşı təzyiqlərin edilməsi barədə yayılan məlumatlara münasibət bildirərkən deyib.


Xədicə İsmayıl


Şahvələd Çobanoğlu

**"Bundan sonra geriyə heç bir addım olmayacaq"**

Xidmət rəisi bildirib ki, bir sıra QHT-in nümayəndələri birgə L. Yunusun səhhəti ilə maraqlanıblar: "QHT nümayəndələri Leyla Yunus saxlanılan təcridxanada olublar. Onun səhhətində heç bir problemin olmadığını görüblər. Leyla Yunus hətta həkimləri təhqir edib, onlara ağır sözlər deyib, özünü tərbiyəsiz aparıb".

Mədət Quliyev deyib ki, həbsdə olan jurnalist Xədicə İsmayıl da eyni qayda ilə saxlanılır: "O, da təqsirləndirilən şəxsdir həmin qayda ilə ona da diqqət var. Amma görürsünüz ki, o da deyir ki, saxlanma şəraiti normaldır. O qarşı da heç bir təzyiq yoxdur. Ümumiyyətlə, mənim yanıma gələn bəzi xarici QHT nümayəndələri suallar verirlər ki, necə olur ki, dalbadal guya siyasətlə məşğul olan şəxslər tutulur. Bunun da cavabı çox asandır. Leyla Yunusa qarşı Rauf Mirqədirovun Ermənistana getməsi ilə bağlı cinayət işi qaldırılıb, bunlar hamısı cinayət işində adları keçən adamlardı. Təbii ki, bunların da hamısı saxlanılmalıdır".

***

Bu arada jurnalistin həbsinə səbəb olan, keçmiş dostu Tural Mustafayev isə mətbuata açıqlama verməsə də, sosial şəbəkədəki profilində susmaq bilmir. T.Mustafayevin son statusu aşağıdakı kimidir: "Hakimiyyətə Xədicə İsmayılovanı tutmaq lazım idi ,tutdu. A, bədbəxtlər əgər mənim dediklərim fakt deyilsə, şantaj, böhtandırsa mənim haqqımda Xədicə tərəfindən şəxsiyyətimi alçaldan, intihar səviyyəsinə gərib çıxardan iyrənc böhtanları niyə tirajlayırsız ? Biri İsa Şahmarlı ilə yatmağımı deyir, biri homoseksual olduğumu deyir, biri satıldığımı deyir, biri alkoqolik olduğumu deyir, biri işdə məsuliyyətsiz olduğumu deyir, biri yayılan videonun mənim tərəfimdən çəkildiyini deyir. A, bədbəxtlər nə gündəsiniz? 4 ildir jurnalistikadayam. Adımı axtarışa versəniz necə materiallar yazdığımı, necə jurnalist olduğumu canlı görə bilərsiz. Qaldı sizin sifətinizə, məsələ aydındır. Xədicə ilə dost olanda sağlığıma rumkalar qaldıranlar, orda oturma burda otur deyənlər, indi Xədicə ilə aramda faktlı problemlər var deyə, ağzınıza gələni tirajlayırsız??

Şəxsiyyətə pərəstiş, dost olduğuna dost, düşmən olduğuna düşmən kimi baxmanız hansı "Demokratiya"ya qulluq etdiyinizin əyani sübutudur. Bu gün bunları tirajlayanlar ondansa danışıqlara dəvət edərdilər məni, ərizəni götür deyərdilər, götürməsəydim başlayardılar şərəfsizlik eləməyə. Sadəcə hamı bir ağızdan əvvəlki böhtanları atmağa, şərəf ləyaqətimi alçaltmağa başladılar. Bildi ya bilmədi. Kim kimin düşmənidir deyə bilmərəm. Hərənin öz düşməni var. Siyasi partiya kimi YAP düşmən ola bilər. Amma fərdləri ilahiləşdirib, YAP-a bunu edib deyə səndə bunu edəcək səndə dözəcəksən deyə bir şey yox".

T.Mustafayev bir daha meydan oxuyub və bildirib ki, hər şey məhkəmədə aydınlaşacaq: "Bundan sonra geri heç bir addım olmayacaq. Bildi bilmədi ağzın yan qoyub danışanlar məhkəmədə gəlib faktları görərlər. Onda şərəfsiz olduqların boyunlarına alarlar".

❑ **Yeni Müsavat**

# Astanadakı 2015-ə politoloji baxış

**"2015-ci ilin Azərbaycanda böyük dəyişikliklər ili olacağına heç bir şübhə etmirəm. Çünki ölkəni indiki səviyyədə idarə etmək artıq mümkün deyil. Dəyişikliklər qaçılmazdır". Bu sözləri "Yeni Müsavat"a 2015-ci illə bağlı proqnozlarını açıqlayan "Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev deyib.**

M.Əliyev bildirir ki, dekabrın 13-də iqtidar təmsilçiləri ilə siyasi partiya liderləri arasında görüş bu açılımın ilk əlamətlərindəndir: "Biz dekabrın 11-də Müsavat Partiyasında Düşüncə Mərkəzinin toplantısına yığışmışdıq. Hakimiyyətin Müsavat Partiyasının dekabrın 14-də təyin etdiyi mitinqə icazə verib-verməyəcəyi məsələsini müzakirə edirdik. Çoxları müsbət cavab olacağına şübhə ilə yanaşdığını deyirdi. Əsas arqument kimi də Bakı şəhər İcra Hakimiyyətinin cavabı üçün qanunda nəzərdə tutulan zamanın keçdiyi göstərilirdi. Mən dedim ki, icazə olacaq, çünki mitinqlərin keçirilməsi özü də bir faktordur. Hakimiyyət bu şansı əldən verməz. Üstəlik dekabrın 13-də partiya rəhbərləri ilə Prezident Administrasiyasının şöbə müdiri Əli Həsənovun görüşü gözlənilir. Bəzi media orqanları bu görüşü iqtidar-müxalifət dialoqu kimi qələmə verir. Ola bilər, iqtidar tərəf də görüşün dialoq kimi təqdimatından razıdır, ancaq mən bunu dialoq saymıram. Çünki bu hələlik fikir mübadiləsidir. Dialoqun konkret predmeti olur. İkincisi də dialoq üçün tərəflərin imkanları bərabər olmalıdır. İndiki format bir qədər fərqlidir. Ancaq görüşü tam dialoq saymaq mümkün olmasa da, ortada iqtidarla müxalifət arasında danışıqlar başlaması faktı olacaq. Görüşü arxasında heç bir nəticə dayanmayan müvəqqəti hal, imitasiya kimi dəyərləndirənlər də var. Yadınıza gəlirsə, 2012-ci il iyulun 2-də də belə bir imitasiya olmuşdu. Əli Həsənov vətəndaş cəmiyyəti institutlarının nümayəndələri ilə görüşdü, ona 80-nə yaxın təklif hazırlandı, rəsmilər sentyabrda prosesin davam edəcəyinə söz verdilər, ancaq bu baş vermədi. Əksinə, ölkədə demokratiyanın, insan haqlarının durumu daha da sərtləşməyə başladı, QHT sektorunun tamamilə sıradan çıxarılmasının əsası qoyuldu. Mənə elə gəlir, o başqa bir kontekst idi, indi yeni kontekst başlayır. Ona görə də mən hesab edirəm ki, dəyişiklik olacaq, iqtidar açılıma gedəcək".

**M.Əliyev düşünür ki, Azərbaycanda demokratik açılımı vacib edən faktorlara son həftələrdə daha biri əlavə edilib. Bu da Rusiyadakı iç siyasi durumda gözlənilən dəyişikliklərdir:** "Bir neçə gün öncə Rusiya prezidenti Federal Məclisə müraciət etdi, ardınca Rusiyada iqtisadiyyatın liberallaşdırılması haqqında qərar qəbul olunub. Artıq baş nazir Dmitri Medvedyev 30-a qədər sənədin icrasına başlandığı haqda mediaya açıqlama verib. Rusiya hakimiyyətinin son günlər gördüyü ən nəzərəçarpan işlərdən biri də vətəndaş cəmiyyəti institutlarına yönəlik siyasətin yumşalmasıdır. Artıq xəbərlər gəlir ki, buna qədər Rusiyada qeydə alınmayan QHT-lər qeydə alınır, qrant layihələri ilə bağlı baryerlər götürülür. Bundan başqa, prezident Putin siyasi məhbusların da azadlığa çıxmasına imkan yaradacaq amnistiya aktının imzalanmasına razılığını verib. Görünən odur ki, 2015-ci il Rusiya üçün liberallaşmaya doğru ciddi addımlar ili olacaq. Mən Rusiyada baş verən bu prosesləri Azərbaycan üçün də uğurlu sayıram. Çünki orada baş verənlərin Azərbaycana təsir etmək imkanı böyükdür. Bu misalları Azərbaycanda demokratik açılım olmasına təkan verəcək əlavə faktorlar kimi səsləndirirəm. Rusiya ilə Azərbaycan arasında müəyyən münasibətlər var. Kremlin siyasətinin Azərbaycana təsir edəcəyi mənə görə, şəksizdir. Bu həm də onu göstərir ki, postsovet məkanında yeni bir situasiya yaranmağa başlayıb. Aydındır ki, bu məkanda aparıcı qüvvə Rusiyadır. Azərbaycan da bu prosesdən kənarda qala bilməz".


**Mehman Əliyev:** "Dəyişikliklər qaçılmaz olacaq"


**Zəfər Quliyev:** "Daxili siyasətdə ciddi korrektələr olacağını gözləmirəm"

**Politoloq Zəfər Quliyev** isə fərqli düşünür. 2015-ci ildə Azərbaycanın daxili siyasi durumu, demokratik ab-havası ilə bağlı fikirlərini "Yeni Müsavat"la bölüşən politoloq deyir ki, son aylar daxili durumdakı gərginliyin yüksələn xətt üzrə inkişaf etməsi açılımın o qədər də yaxında olmadığını düşünməyə əsas verir:"Azərbaycanda hər hansı yumşalma baş versə belə, həmin prosesi "demokratik açılım" kimi dəyərləndirmək çox nikbin yanaşma olardı. Düşünürəm ki, 2015-ci ildə də Azərbaycan hakimiyyəti daxili siyasi kursunda xüsusi dəyişikliklər etməyəcək. Ancaq gələn il Azərbaycan Avropa Yay Oyunlarına ev sahibliyi edəcək, üstəlik iqtidarın daxili durumu indikindən daha artıq sərtləşdirmək imkanları tükənib, beynəlxalq birliklə demokratiya və insan haqları sahəsindəki durumla bağlı konfliktli durum yaranıb. Sadaladığım faktorların 2015-ci ildəki daxili duruma birbaşa təsir imkanları var. Ola bilər, biz gələn il 2014-dəki kimi həbslər dalğasının şahidi olmayacağıq, həm vətəndaş cəmiyyətinin nümayəndələrinə, həm mediaya, həm də mətbuata indiki kimi ciddi basqılar olmayacaq. Ümumilikdə isə daxili siyasətdə ciddi korrektələr olacağını gözləmirəm".

**Politoloq ölkədə ciddi demokratik dəyişikliklər olacağı ehtimallarını zəif saysa da, iqtidarın iç siyasi həyatla bağlı vizual effektlər yaradacağı fikrindədir:** "Hakimiyyət demokratik durumdakı problemləri korrupsiyaya qarşı mübarizəni sərtləşdirməklə arxa plana keçirməyə çalışa bilər. Bu, hakimiyyətə öz imicini qorumaq üçün gərəkdir. Bundan başqa, rəsmi Bakı modernləşmə ilə bağlı bir sıra səs-küylü layihələr həyata keçirə, Qərblə iqtisadiyyatın müxtəlif sahələri üzrə, o sıradan enerji sahəsi üzrə işbirliyini gücləndirə bilər. Ancaq bu dəyişikliklərin heç bir halda daxili siyasi duruma təsir edəcəyini düşünmürəm".

**Z.Quliyevə görə, rəsmi Bakının islahatlar və liberallaşmadan ciddi şəkildə ehtiyatlanmasının səbəbləri çox sadədir - islahatlar hakimiyyət üçün təhlükəlidir.**

❑ **Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 304 (6013) 13 dekabr 2014



# Elektro-şokların tilsimi nə zaman sınacaq?

**Hüseynbala SƏLİMOV**

**Bu günlərdə Ermənistanda müxalifət daha bir izdihamlı mitinq keçirdi. İnsanlar hakimiyyətdən narazılığını ən kəskin şüarlarla ifadə etdilər. Bunu niyə xatırladıq?**

Məsələ bundadır ki, qonşu ölkənin cəmiyyəti daha dinamik görünür. Orada insanlar böyük küçə yürüşləri keçirdiyi bir halda, Azərbaycan müxalifətçiləri şəhərin ən ucqar yerlərində etiraz aksiyası keçirmək üçün zorla icazə alırlar. Hələ onu demirik ki, bu aksiyalara müxalifətin özünün beş-üç üzvündən savayı heç kim gəlmir...

Bunun səbəbini yozmaq üçün çox cəhdlər edilib. Kimi cəmiyyətin yorulduğunu deyir, kimi də insanların mövcud siyasi institutlara inamsızlığını qabartmağa çalışır.

Amma bu cəhdlərin heç biri inandırıcı görünmür. Ən azı ona görə ki, keçmiş sovet ölkələrinin hamısı eyni vəziyyətdən start götürüb.

Bu illər ərzində "stabil" qalan isə yalnız bəzi Mərkəzi Asiya ölkələri və bir də Azərbaycan olub.

İndi Azərbaycanda repressiya hiss olunacaq səviyyəyə çatıb. O, insanlar həbs edilib ki, başqa vaxt onların həbs ediləcəyini heç fərz etmək belə mümkün deyildi.

Ona görə ki, onlar bilavasitə siyasi fəaliyyətlə məşğul olmur və həm də böyük beynəlxalq əlaqələrilə seçilirdilər. Amma onlar da həbs edildilər...

Bunu hakimiyyətin siyasi evolyusiyasının məntiqi yekunu kimi qiymətləndirmək də azdır. Hələ ABŞ prezidenti Tomas Cefferson yazırdı ki, ən pis hakimiyyət ən çox hakimiyyətdən törəyir, ondan yaranır.

Azərbaycanda da hakimiyyət qarşısında manеə görmədiyindən artır və artdıqca da mürtəceləşir. Amma burada başqa bir detalı da qeyd etməmək olmur. Məsələ bundadır ki, repressiyaların artmasını başqa səbəblərdlə də izah etmək olur...

Təbii ki, böyük hakimiyyət böyük müstəbiddir. Bu, öz yerində. Amma düşünürük ki, hakimiyyət həm də siyasi planlaşdırma ilə məşğuldur. İndilər nə baş verir?

Dünya bazarında neftin qiyməti kəskin şəkildə düşür. Bu prosesdə hədəf kimi Rusiya götürülsə də digər neft ölkələri də böyük ziyanlarla üzləşəcəklər. Bu mənada Azərbaycan da heç də istisna deyil.

Düzdür, hökumət neftin qiymətinin 60 dollar civarında qalacağı halda belə milli iqtisadiyyatın duruş gətirəcəyini vəd edir.

Amma birdən neftin qiyməti bundan da aşağı düşdü? Onda nə olacaq? Artıq ölkə böhranın ilk nəfəslərini hiss edir, hökumət bəzi böyük sənaye layihələrini təxirə salmağı düşünür.

Fəqət, bu, hələ hamısı deyil. Neft tamam ucuzlaşanda insanlar "böyük neft strategiyası"nın necə böyük blef olduğunu başa düşməyəcəklərmi? İnsanlar o vaxt bunu böyük şok kimi yaşamayacaqlarmı?...

İstisna deyil ki, onda böyük sosial problemlər yaşanacaq, cünki büdcənin əhəmiyyətli hissəsi neftdən gələn gəlirlər hesabına formalaşır. Bu gəlirlərin olmayacağı təqdirdə hökumət büdcədəki boşluğu nə ilə dolduracaq?

Əski marksistlər kimi hər böyük sosial problemin böyük sosial qarşıdurmaya çevriləcəyini iddia etmək fikrində deyilik. Amma bunun əksini düşünmək üçün də elə bir əsas yoxdur - kəskin sosial problemlərlə böyük sosial partlayışlar arasında hər halda bir sinxronluq olur. İstisna deyil ki, hakimiyyət həmin günə hazırlıq görür.

Ermənistanın prezidenti bir dəfə Azərbaycanın "iqtisadi uğurları"nı şişirtməməyi tövsiyə etmişdi. O demişdi ki, Azərbaycan büdcəsindən neftdən gələn gəlirləri çıxsan, təxminən Ermənistanın büdcəsi alınar...

İndi böyük neft böhranı yaşanacağı halda bu proqnoz özünü doğrultmayacaqmı? O vaxt məlum olmayacaqmı ki, Azərbaycanın böyük iqtisadi artımları, rəqabət qabiliyyətli iqtisadiyyatı haqqında deyilənlər böyük bir blefdən başqa bir şey deyilmiş?

Onda insanlar nə edəcək? Azərbaycan polisinin təzəcə əldə etdiyi elektro-şokların o vaxt tilsimi sınmayacaqmı? Təbii ki, sınacaq, çünki insanlar hətta indikindən də qəddar hakimiyyətlər görüblər, amma onlara qarşı da çıxmağı bacarıblar...

Bəlkə hakimiyyətin analitikləri bu ssenarini əvvəlcədən görürlər? Axı ölkə düz 21 ildir ki, məhz belə idarə olunur - hər böyük problemdən əvvəl müxalifətə, ölkənin fəal ictimai-siyasi adamlarına qarşı böyük təzyiqlər və böyük təqiblər başlayıb...

**Buna bəzən "preventiv siyasət " də deyilir. Həm də nəzərə almaq lazımdır ki, bu hakimiyyət ölkəni daha çox rusiyalı siyasi texnoloqların tövsiyələri əsasında idarə edir. Situasiyalar isə eynidir - istər o, Rusiyada olsun, istərsə də Azərbaycanda. Hər iki ölkədə bu illər ərzində insanlara böyük siyasət əvəzinə böyük blef "sırınıb"...**

# Bu gün partiya sədrləri Əli Həsənovla görüşəcək

## İqtidar təmsilçisi ilə görüşə gedənləri aşağılayan AXCP rəhbərliyinə Mirmahmud Mirəlioğludan sərt cavab: "Yazıqların yuxusu qaçıb..."

**Azərbaycanda 8 müxalifət partiyasının rəhbərləri Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovla görüşəcək. Dekabrın 13-də baş tutacaq görüşdə siyasi məhbuslar, daha geniş tərkibli müxalifətlə dialoq və digər məsələlər müzakirəyə çıxarılacaq.**

Bu haqda "Yeni Müsavat"a görüşün təşəbbüsçülərindən biri *Klassik Xalq Cəbhəsi Partiyasının (KXCP) sədri Mirmahmud Mirəlioğlu* məlumat verib. Onun dediyinə görə, noyabrın 12-də belə bir görüşün keçirilməsi haqda qərar qəbul olunub və 3 gün sonra Prezident Administrasiyasının ictimai-siyasi şöbəsinə müraciət edilib: "Görüşün vaxtı haqda 3 gün öncə bizə məlumat gəlib. Dünən görüşə qatılacaq partiyalar öz iştirakını təsdiqləyib. 8 müxalifət partiyası iştiraka razılıq verib".

Bunlar Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzinə daxil olan KXCP, ADP, Ümid Partiyası, Azadlıq Partiyası, Aydınlar Partiyası, Böyük Azərbaycan Partiyası, Vətəndaş və İnkişaf Partiyası, Azərbaycan Liberal Demokrat Partiyasıdır. Mərkəzə daxil olan partiyalardan üçü Müsavat, AXP və AzDP isə görüşdə iştirak etməyəcəyini bəyan edib.

**AXCP rəhbərliyi isə Əli Həsənov**la görüşü iqtidarın siyasi oyunu adlandırıb və görüşə gedəcək partiya sədrlərini aşağılayan mövqe sərgiləyib. AXCP sədrinin müavini Fuad Qəhrəmanlı "Azadlıq" qəzetinə açıqlamasında deyib ki, 8 partiyanın Əli Həsənovla gözlənilən görüşünü iqtidarın növbəti siyasi oyunu sayır: "Mənə aydın deyil ki, Əli Həsənov özlərindən başqa heç kimi təmsil etməyən adamlarla nədən danışacaq. Görünür, məqsəd nəyisə müzakirə etmək yox, bu görüşdən istifadə edib beynəlxalq aləmə iqtidar-müxalifət dialoqu görüntüsü yaratmaqdır. Bu gün iqtidarın gerçək müxalifətə münasibəti bəllidir. Ona görə də AXCP bu məsələni iqtidarın növbəti oyunu hesab edir".

**KXCP sədri Mirmahmud Mirəlioğlu** isə "Yeni Müsavat" vasitəsilə AXCP-yə cavab verib: "Əgər onlar bizi "özlərindən başqa heç kimi təmsil etməyən adamlar" hesab edirlərsə, öz dediklərinə özləri inanırsa nədən onlar bu qədər narahatdırlar!? Yazıqların yuxusu qaçıb, böyüklərini fikirləşmirlər, kiçiklərinin haqqında düşünmürlər, öz bugünlərinə, sabahlarına baxmırlar, ağızlarına gələni yazırlar, danışırlar. Əli Həsənovla 8 partiya sədrinin görüşü hələ dialoq deyil, bu, sırf görüşdür. Dialoq mühiti olacaq-olmayacaq zamanın işidir. Biz istəyirik ki, ölkədə dialoq mühiti yaransın. Görünür, həmin o narahat olanlara dialoq mühitinin yaranması sərf eləmir. Dialoq mühiti olsa, axı onların fəaliyyətinə meydan olmayacaq. Hər şey yaxşı olacaqsa, kimi söyəcəklərini, kimi təhqir eləyəcəklərini düşünüb narahat olurlar. Bütün məsələlər ətrafında görüşdən sonra ətraflı danışa bilərik".



Mirmahmud Mirəlioğlu

Ümid Partiyasının sədri İqbal Ağazadə isə hakimiyyət təmsilçisi ilə planlaşdırılan görüş və görüşdə iştirak edəcək partiyalara qarşı irəli sürülən aşağılayıcı fikirlərə görüş keçirildikdən sonra ciddi bir cavabının olacağını dedi: "İstəmirəm ki, görüş öncəsi bununla bağlı mövqe ifadə eləyim. Amma görüşdən sonra mütləq bununla bağlı mövqeyimi deyəcəyəm. Hesab edirəm ki, mövqeyim kifayət qədər obyektiv və ədalətli olacaq. Ona görə də çox xahiş edirəm görüşdən sonra bununla bağlı mənə sual verin".

**Görüşdə hansı məsələlərin müzakirəsini istəməsinə gəlincə, İ.Ağazadə dedi ki, hakimiyyətin təklifinə, yanaşmasına, müxalifətdən nə gözlədiyinə qulaq asmaq istəyir:** "Sonra mövqeyimi ifadə edəcəm. Ona görə də öncədən bir şey demək istəmirəm".

**❑ Etibar SEYİDAĞA**

# Müsavatın 14 dekabr mitinqinə icazə verildi

## Mitinq komitəsindən aksiya ilə bağlı çağırış edildi

**Müsavat Partiyasının Beynəlxalq İnsan Haqları Günü münasibəti ilə "Siyasi məhbuslara azadlıq!" şüarı ilə 14 dekabra təyin etdiyi mitinqlə bağlı müraciətinə Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) dünən müsbət cavab verib.**

BŞİH-in ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Zaur Ramazanovun Müsavata göndərdiyi məktubda müraciəti araşdırıldığı və mitinqə razılıq verildiyi bildirilib. Mitinqin 14 dekabr saat 15:00-dan 17:00-a qədər "İnşaatçılar" metrostansiyasının yanındakı keçmiş "Məhsul" stadionunda keçirilməsi məqsədəuyğun hesab edilib. Qeyd edək Müsavat Partiyası müraciətində məhz bu ünvanda mitinq keçirmək istədiyini bildirmişdi.



Gülağa Aslanlı

**Mitinq Komitəsinin rəhbəri Gülağa Aslanlı** "Yeni Müsavat"a açıqlamasında 14 dekabr mitinqinə hakimiyyətin razılıq verəcəyinin əvvəldən gözlənildiyini və gözləntinin doğrulduğunu bildirdi: "Bu mitinq 10 dekabr Beynəlxalq İnsan Haqları Gününə həsr olunub. Mitinqə razılıq verilməməsi üçün hər hansı bir səbəbin olmadığını bilirdik və razılıq olacağını gözləyirdik. Ona görə mitinqə hazırlıqlara da Bakı Şəhər İcra Hakimiyyətinə müraciət etdiyimiz gündən başlanıb, Mitinq Komitəsi formalaşdırılıb, Mitinq Komitəsi iş bölgüsü aparıb hazırlıqları həyata keçirib. Texniki-təşkilati işlər demək olar ki, əsasən tam yerinə yetirilib. Mitinqə razılıq verildiyi rəsmi bəlli olandan sonra - dekabrın 12-də Mitinq Komitəsinin toplantısı keçirildi".

Mitinqdə digər partiyaların iştirakı məsələsinə gəlincə, G.Aslanlı dedi ki, bu aksiya insan haqları, siyasi məhbuslar problemi ilə bağlıdır. Ona görə də hər bir siyasi partiyanın, vətəndaşın iştirakı arzu edilir. Lakin heç bir partiyaya xüsusi bir dəvət göndərilməyib: "Siyasi məhbusların azad olunmasını, insan haqlarının bərqərar olmasını istəyən hər bir partiya, ictimai qurum, gənclər təşkilatlarını biz bu mitinqə dəvət edirik. Biz bir daha bəyan edirik Müsavat Partiyası bu mitinqin ancaq təşkilatçılığını öz üzərinə götürüb. İnsan haqları məsələsi isə heç bir partiyanın inhisarında olmadığı kimi Müsavatın da inhisarında ola bilməz. Mitinqdə siyasi məhbusların plakatları olacaq. Orada da heç bir ayrı-seçkiliyə yol verilməyib. Mitinqdə iştirak edənlər bunun şahidi olacaqlar".

Mitinq Komitəsinin sədri aksiyada kimlərin çıxış edəcəyi haqda hələ son qərar verilmədiyini dedi.

*"Əvvəllər Müsavatın mitinqlərində adətən Arif Hacılı aparıcı olurdu. Arif bəy başqan seçildiyi üçün budəfəki mitinqdə aparıcı kim olacaq"* sualına isə G.Aslanlı belə cavab verdi: "Bu məsələ müzakirə olunur və son qərar verilməyib. Hesab edirəm ki, mitinqə gələnlər yeni bir aparıcını da görə biləcəklər".

**❑ Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 304 (6013) 13 dekabr 2014

# Ümid Partiyası bələdiyyə seçkilərində iştirak edəcək namizədlərin daha bir qismini ictimaiyyətə təqdim edir



*Ümid Partiyasının Nərimanov Bələdiyyəsinə namizədi Qurbanova Fatma Qoça qızı*
*Qurbanova Fatma Qoçaq qızı1957-ci ildə Qazax rayonunda anadan olub.*
*Ali təhsillidir.*
*1980-ci ildə Azərbaycan Xarici dillər Universitetini bitirib.*
*Universiteti bitirdikdən sonra Xanlar Rayonunda müəllim, sonradan Bakı Şin Zavodunda mühəndis vəzifəsində işləyib.*



*Ümid Partiyasının Nərimanov Bələdiyyəsinə namizədi Səfərov Ələkbər Alqan oğlu*
*Səfərov Ələkbər Alqan oğlu 1959-cu ildə Şamaxı rayonunda anadan olub.*
*Ali Təhsillidir.*
*1984-cü ildə Moskva Dövlət Universitetinin Hüquq fakültəsini bitirib.*
*Hazırda "sədanın səsi" qəzetinin xüsusi müxbiridir.*
*Ailəlidir, iki övladı var.*



*Ümid Partiyasının Nərimanov Bələdiyyəsinə namizədi Ismayılov Xətai Ismayıl oğlu*
*Ismayılov Xətai Ismayıl oğlu 1989-cu ilin may ayında Bakı şəhərində anadan olub.*
*Ali təhsillidir.,2010-cı ildə Azərbaycan Dövlət Mədəniyyət və Incəsənət Universitetinin Kino Aktyorluğu Fakültəsini bitirib.*
*Hazırda "Abşeron JW Marriot Compani"-də işləyir.*
*Ailəlidir, bir övladı var.*



*Ümid Partiyasının Nərimanov Bələdiyyəsinə namizədi Əhmədova Yaqut Hikmət qızı*
*Əhmədova Yaqut Hikmət qızı 1963-cü ildə Bakı şəhərində anadan olub.*
*Ali təhsillidir. 1985-ci ildə Azərbaycan İqtisad Universitetinin Maliyyə-Kredit, Statistika fakültəsini bitirib.*
*Ailəlidir, 2 övladı var.*

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



## İqbal Ağazadə Mahmud Bilgini qəbul edib



Dekabrın 11-də Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə partiyanın Mərkəzi Qərargahında Güney Azərbaycan Demokrat Partiyasının sözçüsü Mahmud Bilgini qəbul edib. Görüşdə Ümid Partiyasının Güney Azərbaycan məsələsi ilə bağlı mövqeyi soydaşımız tərəfindən təqdir olunub, bu davada görüləcək işlər haqda geniş fikir mübadiləsi aparılıb. İqbal Ağazadə bu haqlı mübarizədə daim soydaşlarımızın yanında olacaqlarını bildirib. GADP sözçüsü də Güney məsələsinin qərb cəmiyyətində tanıtdırılması yönündəki fəaliyyətlərlə bağlı fikirlərini paylaşıb. Görüşdə Ümid Partiyasının sədr müavini Rüfət Muradlı və BAO təmsilçisi Hakim Sadıqlı da iştirak edib.



*Ümid Partiyasının Nərimanov Bələdiyyəsinə namizədi Mirzəyev Məhəmməd Sədri oğlu*
*Mirzəyev Məhəmməd Sədri oğlu 1952-ci ildə Quba rayonunda anadan olub.*
*Ali təsillidir. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Əməyin İqtisadiyyatı fakültəsini bitirib.*
*Ailəlidir, iki övladı var*



*Ümid Partiyasının Nərimanov Bələdiyyəsinə namizədi Həsənov Namiq Nizami oğlu*

YENİ MÜSAVAT
N 304 (6013) 13 dekabr 2014



# Tərif Şurası

Zamin HACI
zaminhaci@gmail.com

**Bu yaxınlarda Ramiz Mehdiyev icra başçılarını yığmışdı aparata, onlara mükafat verirdi. Guya yaxşı işləyirmişlər. Birinə medal, o birinə diplom, ayrısına villa, dördüncüsünə təzə katibə... Zarafat edirəm, bizdə dövlət qulluğunda fərqlənənlər üçün belə ödüllər yoxdur. Ancaq quru medal-zad verilir.**

İki-üç gün qabaq isə Gəncədə camaat üsyana qalxıb həmin icra başçılarından birinin qulağını dartmışdır. Xəbərə görə başçını daşqalaq ediblər. Eynilə İranda zinakarlıq edənlərin cəzalanması üsulundakı fason. Əlbəttə, bizim icra başçıları zinakar deyil. Bəs niyə o zaman daşqalaq edilirlər? Elə bilirsiniz mən sizə bunun səbəbini yazacağam? Ay-hay... Ölmüşdü Xankişi, qoburu əldən verə... Hər şeyi yazmaq dövrü geridə qaldı, indi ucundan-qulağından yazmaq erasıdır. Bir neçə hər şeyi yazan var idi, indi Kürdəxanı zindanında apelyasiya ərizəsi yazırlar. Həm də guya hər şeyi bilmək xalqın nəyinə lazımdır? Yenə bu xalq bilmədən oturub yerində, başqa xalq gəlsə guya yaxşı olacaq?

Uzun sözün qısası, hörmətli oxucularımızdan Vasif Həsənovun bir səmərələşdirici təklifi vardır - sovet dövründə belə təklif irəli sürənlərə Lenin mükafatından, Sosialist Əməyi Qəhrəmanı adından-zaddan bir şey verirdilər, indi hökumətin qanacağı nəyə çatacaq, onu da bilmirəm. Məktubu oxuyaq: “Bildiyiniz kimi hər ilin sonu və növbəti ilin əvvəli bir qrup yüksək ranqlı *(burda qeyd edim ki, ”yüksək ranqlı" ifadəsini mən həmişə çaşıb “yüksəkdən anqıran” kimi oxuyuram, indi də gözümə elə göründü - Z.H.)* məmur “Tarif Şurası” adlı qurumda bir araya gələrək əhalinin dolanışığı üçün önəmli olan məsələlərdə *(elektrik, benzin, su, qaz)* qiymətləri qaldırır, o qədər əhəmiyyət daşımayan xidmətlərdə isə *(internet, poçt, telefon)* qiymətləri endirirlər. İndi ilin sonudur, hazırda dünya bazarında neftin qiymətinin kəlləmayallaq aşağı düşməsi həmin qurumun məşvərətini əvvəlki illərdən daha çox zəruri edir. Yəni, məntiqlə və bazarın tələbi ilə Şura növbəti toplantısında dəvənin belinə qaldırdığı qiymətləri endirməlidir.

Ümumiyyətlə, təklif edirəm ölkəmizdəki bütün nazirlik və komitələr ləğv olunsun, Oruellin məşhur romanındakı kimi, yalnız 2 nazirlik yaradılsın: Tərif və Təhrif Nazirlikləri. Onsuz da ölkəmizin son illərdəki kosmik nailiyyətləri *(analoqu olmayan inkişaf, regionun lider dövləti, ən uca bayraq, Ginnesin rekordlar kitabı və sairə)* yalnız bu iki istiqamət üzrə müəyyən olunur".

Doğrudan da yaxşı təkliflərdir. İlk növbədə, oxucu haqlı olaraq qiymətlərə yenidən baxmağı tələb edir. Neft ucuzlaşıbsa, biz niyə benzini köhnə qiymətlə almalıyıq? Hökumət bunu izah edə bilərmi? Artur müəllim qış yuxusuna getməmiş zəhmətkeşlərin bu sualına cavab versin.

İkincisi, nazirliklərin ixtisarı da olduqca vacibdir. İsveçrə kimi inkişaf eləmiş dövlətdə cəmi 9 nazirlik var, bizim geridəqalmış anarxist-millətçi-feodal-oliqarxik-oliqofren dövlətciyimizin 99 nazirliyi, 199 dövlət komitəsi, bu idarələrdə sülənən yüz minlərlə müftəxor məmuru vardır. Nəyə görə uca millətimiz, sevgili xalqımız bunları yemləməlidir? Onsuz heç bir işə yaramırlar, hər yeri cənab prezident təkcanına tikir, qurur, yaradır, böyüdür, ucaldır, qaldırır, yüksəldir!

Hətta deyərdim oxucu da nazirliklərin sayını çox saxlayıb, bizə cəmi bir nazirlik bəsdir: Tərif Nazirliyi. Vəssalam. Otur, sutka boyu təriflə. Televizor bəs eləmir, tozsoranla təriflə. Müəllim və həkim danışıb yorulub, ağsaqqal və aşbirçəkləri işə sal. Onların da batareykası sönəndə məktəbliləri toka tax. Tərif bir an dayanmasın gərək.

**İndi söz neftin qiymətindədir. Düş qadan alım, bir az da düş... Daha çox şpaqat videolarına baxmaq istəyirik.**

## Dünyanı təhdid edən terror təhlükəsi böyüyür

# İŞİD Azərbaycana soxulmağa çalışır

## Məlumata görə, son günlər ölkəmizdəki radikal qruplaşmalar yenidən fəallaşıblar, hətta silahlanmaları ilə bağlı məlumat da yayılır; İŞİD-in “işartıları” Sumqayıtda necə görünmüşdü?; yaxın aylarda dini qruplara qarşı əməliyyatın genişlənəcəyi gözlənilir

**Hazırda Yaxın Şərqin iki ölkəsi - Suriya və İraqda fəal olan İŞİD bütövlükdə bölgə ilə yanaşı, dünyanın müxtəlif ərazilərində özünə tərəfdar tapa bilib. Vaxtilə “əl-Qaidə” dünyanın 60-dan artıq ölkəsində mövcud olduğunu nəzərə alsaq, o zaman İŞİD-in digər ölkələrdə də genişlənməsi təəccüblü deyil.**



Qeyd edək ki, artıq Pakistanda, Misirdə, o cümədən bir neçə Şimali Afrika ölkəsində və Orta Asiyada bir sıra radikal islamçı qruplaşma İŞİD-i dəstəklədiyini bəyan edib. Hətta ötən ay Misirdəki terror aktının məsuliyyətini İŞİD tərəfdarları öz üzərinə götürmüşdülər. Yəni artıq belə demək olarsa, qruplaşma İraq və Suriya sərhədlərini keçərək daha qlobal təhlükə mənbəyinə çevrilib.

Qısa statistika da dediklərimizi təsdiq edir.

Bir neçə gün əvvəl qruplaşma Səudiyyə Ərəbistanında Aşura mərasimi keçirən şiələrə hücum edib və 7 nəfəri öldürüb. “Frans-Press” Agentliyinin paytaxt əl-Riyaddan verdiyi xəbərdə deyilir ki, Səudiyyə Ərəbistanının hakim dairələri İŞİD-in sifarişi ilə Qərb vətəndaşını güllələyən 3 nəfərlik qrupu həbs edib. Daxili İşlər Nazirliyinin mətbuat katibi Mənsur əl-Türki bildirib terrora məruz qalan şəxs çiynindən və sinəsindən güllə yarası alıb.

Daxili İşlər Nazirliyinin mətbuat katibi Mənsur əl-Türki deyib ki, maşını sürən də, silahdan atəş açan da, prosesi lentə alan da həbs olunub. O da məlum olub ki, terrorçular bu sui-qəsdi həyata keçirmək üçün 2 həftə məşq ediblər.

Qeyd edək ki, bu hadisədən 1 həftə öncə isə Səudiyyə Ərəbistanında bazarlıq edən kanadalı terrora məruz qalıb, onu bıçaqlayıblar. Ehtimal olunur ki, hər iki ölkə İŞİD-ə qarşı beynəlxalq koalisiyanın üzvləri olduğu üçün baş verənlər terrorçu qruplaşmanın qisas əməliyyatıdır. İŞİD lideri Əbu Bəkir əl-Bağdadi bəyan edib ki, Səudiyyə Ərəbistanı bundan sonra əmin-amanlıq və təhlükəsizliyinin hökm sürdüyü ölkə olmayacaq.

Bu hadisələr göstərir ki, artıq İŞİD liderlərinin “əli” kənar ölkələrə də çatır və bu cür ölkələrdə terror aktları üçün “düyməyə basıla” bilər. Ötən illərdə “əl-Qaidə” təcrübəsi də göstərdi ki, müasir texnologiya vasitələri ilə əlaqə qurulan terrorçular özlərinin xain planlarını həyata keçirənədək “maskalanırlar”. Neçə vaxtdır dinc respublikaya çevrilən Çeçenistanda ötən həftə gözlənilmədən baş verən terror olaylar da göstərdi ki, bu kimi radikal qruplaşmalar istənilən an hərəkətə gəlməyə hazırdırlar. Analoji təhlükə Azərbaycan və bütövlükdə Qafqaz regionu üçün də realdır. Radikal təşkilat yaradılandan bəri Azərbaycanın adının da İŞİD-in hədəf aldığı ölkələr sırasında çəkilib.

Son illərdə baş verən bir sıra olaylar da göstərir ki, inkişaf etməkdə olan Azərbaycan radikal islamçı təkfirçi qrupların hədəfindədir. Terrorçular hətta bir neçə dəfə Azərbaycanda da hücumlar həyata keçirməyə cəhd ediblər. 2007-ci ildə radikalların hərbi hissələrdən birində posta hücum edərək əsgərlərin silahını oğurlaması faktı qeydə alınmışdı. Sonuncu dəfə isə 2012-ci ildə terrorçular ölkənin bir neçə bölgəsində fəallaşmışdılar və hüquq-mühafizə orqanları ilə silahlı qarşıdurmadan belə çəkinməmişdilər.

“Yeni Müsavat” məhz bu təhlükələri önləmək üçün MTN, DİN və Respublika Prokurorluğunda şərti olaraq “antiİŞİD” adlandırılan birgə qrupun yaradılması barədə ötən ay məlumat dərc etmişdi. Həmin məlumatda bildirilirdi ki, MTN-in Antiterror İdarəsinin koordinasiya ilə Bakıda və digər bölgələrdə müxtəlif dini cərəyanlarla təmasları olan şəxsləri, eləcə də onların çevrələrini ciddi nəzarətə alıb. Rəsmilər “antiİŞİD” qrupunun yaradılması ilə bağlı xəbərləri nə təsdiq, nə də təkzib etsə də, milli maraqları təhdid edən istənilən təhlükəni önləmək üçün zəruri addımların atıldığını bəyan etmişdilər. Son aylar MTN-in keçirdiyi şok əməliyyat nəticəsində ümumilikdə 26 nəfər həbs edilib ki, onlara təkcə silahlı birləşmələr yaratmaqda deyil, eləcə də onların fəaliyyətində iştirak etmə, silahla, partlayıcı maddələrlə, hətta hərbi texnika ilə təmin etmə kimi ağır ittihamlar verilib. Araşdırmalar zamanı məlum olmuşdu ki, əməliyyat nəticəsində ələ keçənlər təkcə İŞİD-in deyil, “Təhriki Taliban” və “Seyfullah” kimi radikal dini qruplaşmaların tərkibində döyüşənlərdir.

Məlumata görə, son günlər Azərbaycandakı radikal qruplaşmalar yenidən fəallaşmağa çalışırlar. Belə ki son illərdə daha çox Suriya və İraqa döyüşməyə gedən təkfirçi qrupların tərəfdarları paytaxtdan bir neçə kilometr şimalda yerləşən Sumqayıtda təşkilatlanmağa başlayıb. Sumqayıtda İraq-Şam İslam Dövləti (İŞİD) adlanan qruplaşmanın “işartıları” olması yeni xəbər deyil. Bir müddət əvvəl Sumqayıtda İŞİD-ə aid bayraqlara bənzəyən yapışqanların, eləcə də qara bayraqlar xatırladan pərdələrin avtomobillərin arxa şüşələrinə vurulması faktları üzə çıxmışdı.

(**Zəruru qeyd:** İŞİD-in bayrağı qara parçanın üzərində yuxarıda “La ilahə illəllah” (“Allahdan başqa Allah yoxdur”) yazısı, ortada isə ağ dairəvi fonda ərəbcə “Allahın rəsulu Məhəmməd” (s.ə.s) (və ya “Muhəmmədən Rəsulallah” yazı əks olunub).

Noyabrın 12-də isə Sumqayıtda sələfilərin lideri Zöhrab Şıxəliyev həbs edilib. Əməliyyat-axtarış tədbirləri nəticəsində onun üzərindən “Valter” tapança aşkarlanıb, mədrəsə kimi istifadə etdiyi evdən isə 3 ədəd qumbara, 48 müxtəlif çaplı patron və 6 ədəd partladıcı detonator, habelə yayılması qanunla qadağan edilmiş 500 ədəd dini ədəbiyyat və 210 ədəd disk aşkar edilib.

“Yeni Müsavat”a verilən bilgilərə görə, Sumqayıtda böyük şəbəkə yaradan radikallar şəhərə silah toplamağa çalışırlar. Məlumatlarda radikalların müxtəlif vasitələrlə silah alaraq Sumqayıta gətirmək istədikləri bildirilir. O da məlum olub ki, bu proses hüquq-mühafizə orqanları tərəfindən ciddi izlənilir və istisna deyil ki, yaxın günlərdə hüquq-mühafizə orqanları bununla bağlı geniş əməliyyat keçirsinlər. Qaynağımızın xəbərinə görə, hansısa səbəblərdən silahlanma prosesini qarşısını tamamilə dayandırmaq da mümkün olmur. Mənbəmizi ehtimal edir ki, “ola bilsin, bu məsələdə hökumət orqanlarına sızmış(?!) radikal dindarların rolu var”.

Sumqayıtda radikal dini cərəyanların “özəkləri” olduğu barədə məlumatlar da yeni deyil və bu şəhərdəki vəziyyət hökumət dairələrinə də yaxşı məlumdur. 2008-ci ildə “Meşə Qardaşları” adlı qruplaşmaya qarşı keçirilən əməliyyat zamanı Sumqayıtda məskunlaşmış ərəb mənşəli bir şəxs də daxil olmaqla bir neçə nəfər həbs olunmuşdu.

Bir il əvvəl-ötən ilin dekabr ayının 11-də Sumqayıtda sələfilərlər xəvaric adlandırdıqları qruplar arasında silahlı insident baş vermişdi. Ötən ay isə şəhərdə keçirilən əməliyyat zamanı radikal dindarlardan birindən silah götürülüb.

**Xəbərləri qəzetimizə şərh edən təhlükəsizlik üzrə ekspert təkcə Sumqayıtda deyil, digər iri şəhərlərdə də, eləcə də paytaxt Bakıda yaxın aylarda dini radikallara qarşı əməliyyatın genişlənəcəyi qənaətindədir. Ekspert bunu həm də Bakıda keçiriləcək olimpiya oyunları ilə birbaşa əlaqəsi olduğu qənaətindədir.**

❑ İnformasiya və xəbər şöbəsi

YENİ MÜSAVAT
N 304 (6013) 13 dekabr 2014

**Vaxt var idi, Azərbaycanın demokratik düşərgəsinin problem və uğursuzluqları ilk baxışda yalnız avtoritar hakimiyyətin hərəkətləri ilə əlaqələndirilirdi. Əlamətdardı ki, buna müxalifətin liderləri və fəallarının özləri də inanırdılar. İnanmasalar belə, hər halda, mümkün olan hər şeyi edirdilər ki, buna tərəfdarları və cəmiyyətdəki bütün protest qüvvələr inansın.**



# Müxalifət siyasi fantoma necə çevrildi...

## Bu gün cəmiyyət, faktiki, müxalifəti unudub, ona marağı yoxdur, çünki verdiyi etimad kreditini düşərgə xərcləyib qurtarıb; müxalifət həm seçkilərdə qələbə, həm də situasiyanı inqilabi yolla dəyişmək şansını xeyli itirib...

Gerçəkdən də, uzun müddət məhz bu qəbildən olan arqumentlərlə müxalif düşərgənin demək olar, bütün uğursuzluqlarına, kolliziyalarına, səhv və böhranlı məsələlərinə haqq qazandırılıb. Yəni problem bizdə deyil, hakimiyyətdədir, bizi iqtidar marginallaşdırır, zəif, passiv və dağınıq hala salır, məhz hakimiyyətin günahı üzündən biz belə olmuşuq, ona görə ki, bizə mənzil-qərargahlar və tədbirlər üçün zallar vermir, bizi radio-telekanallara buraxmır, bölgələrə səfərlərimizi, xalqla təmaslarımızı əngəlləyir, qəzetləri bağlayır və cərimələyir, fəallarımızı qorxudur və həbsə atır, partiyalarımızı və onların liderlərini bir-birinə qarşı qoyur, səslərimiz oğurlayır və seçkilərdə əl-qolumuz bağlayır, şəhərin mərkəzində mitinqlər keçirməyə imkan vermir, sıralarımıza agentlər yerləşdirir və daim bizə qarşı ən qara PR kampaniyası aparır və s.

Həqiqət də olsa, sadalanan arqumentlər uzun müddət hər cür iddianı söndürməyə kömək edib və sanki "avans" olaraq müxalifətə etimad kreditini uzatmış olub. Çoxları əvvəllər düşünürdü ki, hakimiyyətin təzyiqlərinin azca zəiflətməsi yetər ki, müxalifət tam gücünü, fəallığını göstərsin və hədəflədiyi məqsədlərin hamısına çatsın.

Təxminən 2005-ci ilədək belə olub. Öncəki illərdə müxalifət əhalinin mühüm bir kəsimindən gələn etimad kreditinin "avansı" hesabına yetərli potensial gücə malik idi. Çünki hər bir müxalif qurumun gücü hakimiyyətin hərəkətlərindən daha çox, məhz xalq tərəfindən verilən dəstək və göstərilən etimad faktoru ilə şərtlənir. Fəqət, son 10 ildə demokratik düşərgənin imici o qədər devalvasiyaya uğradı ki, tədricən tərəfdarlarının çoxunun etimadını itirdi.

Belə bir durumun avtoritar rejimin məqsədyönlü siyasətinin nəticəsi olduğunu heç kim danmır. Ancaq axı, bu, yalnız həqiqətin yarısıdır. Başqa bir yarı odur ki, müxalifət xeyli dərəcədə özü-özünü belə vəziyyətə salıb. 10-15 il qabaq çoxları gerçəkdən də zənn edirdilər ki, əgər seçici səsləri saxtalaşdırılmasa, o zaman hakimiyyətin opponentləri həm prezident, həm də parlament seçkilərində qələbə çala bilərlər. 10-15 il qabaq əksəriyyət güman edirdi ki, əgər müxalifət telekanallara və ya Azadlıq meydanına buraxılsa, bu, anındaca cəmiyyəti ayağa qaldıracaq və ölkədə inqilabın dəyişiklik üçün real baza yaradacaq.

Ancaq illər ötür, dünya və ölkə dəyişir, vətəndaşların həyatı dəyişir, müxalifət isə hadisələrin quyruğunda ilişib qalırdı, hətta dəyişsə belə - neqativ tərəfə dəyişirdi. İndi isə müxalifətin durumu bambaşqadır - o, indi toplumun etimad kreditindən məhrum olub. Özü də tək hakimiyyətin deyil, həm də öz günahı üzündən məhrum olub.

Mövcud situasiyanın paradoksallığı ondadır ki, əgər hakimiyyət qəfildən öz hədələri, məhdudiyyətləri və qadağalarından əl götürüb müxalifətə demokratik mübarizə üçün bütün imkan-şəraiti yaratsa, o zaman o, praktik şəkildə heç hansı riskə yol verməmiş olacaq. Nədən ki, əhalinin etimad kreditini xərcləmiş hazırkı müxalifət xeyli dərəcədə həm seçkilərdə qələbə, həm də situasiyanı inqilabi yolla dəyişmək şansını itirib.

Bunu real faktlar da təsdiqləyir. Belə ki, bir il öncə prezident seçkiləri zamanı Milli Şuranın vahid namizədi Cəmil Həsənli teledebatlar zamanı parlaq və cəsarətli çıxışları ilə hamını valeh eləsə də, müxalifətin paytaxtın əlverişli məkanında icazə verilmiş mitinqlərinə 10 mindən az insan toplaşırdı. Elə seçkilərdə də Cəmil Həsənli qələbədən faktiki, çox uzaq oldu - hətta səslərin ən vicdanlı şəkildə sayılması halında o, çətin ki, ikinci tura ümid edəydi.

Bugünkü mənzərə isə daha əzicidir. Məsələ ondadır ki, bir çox müxalif partiyadan yalnızca quru adlar və ya öz liderlərinin maraqlarının lobbiçiliyini edən kiçik qruplar qalıb. Dərin böhranlı durum bir vaxt müxalifətin aparıcı partiyaları və təşkilatları olmuş qurumlara da sirayət edib: AXCP özünün bütün potensialını itirib və indi Milli Şuranın bir ovuc "fanatı" və qoltuq ağacları hesabına üzdədir - hansı Milli Şura ki, elə özü də uçurum qırağındadır. Müsavat Partiyası isə qurultay yoxlamasına dözmədi; indi bu təşkilat tarixinin ən ciddi böhranını yaşayır. Müxalif düşərgənin bütün böhranlı anlarının əsas xilaskarı olan Müsavatın sabiq başqanı isə yaranmış duruma dair heç bir düstur ortaya qoymur, ya da özünün görünən müdaxiləsini vacib saymır. Digər partiya və təşkilatlar da ya yatıb, ya da su olan stəkanda tufan yaratmaqla məşğuldur...

***

Bu gün vətəndaşlar öz problemlərini artıq hakimiyyətin opponentlərinə nəzər yetirmədən özləri həll eləmək zorunda qalıblar - cəmiyyət, faktiki, müxalifəti unudub, hətta ona marağı ölüb. Və bu gün "hər şeydə iqtidar günahkardır, əgər o, təzyiqi azaltsa, müxalifət yenidən bütün gücü ilə ortaya çıxacaq" kimi əvvəlki stereotip arqumentlər də daha işləmir. Hətta toplumun narazı hissəsi əvvəlki tək bu arqumentlərə inanmır və eyni dərəcədə hakimiyyətdən də, müxalifətdən də narazıdır. Üstəgəl, iqtidarın özü də əvvəlki narahatlığı keçirmir və müxalifətə öz mitinqini şəhər hüdudlarında keçirməyə icazə verir.

Ancaq Milli Şuranın oktyabr və noyabrdakı son iki mitinqindən aydın göründüyü kimi, bu aksiyalara 1000-1500 nəfərdən artıq adam gəlmir. Dekabrın 14-də isə "Məhsul" stadionunda analoji mitinqi Müsavat Partiyası keçirəcək və yəqin ki, göstəricilər təxminən eyni olacaq. Və hətta ehtimal eləsək ki, iqtidar qəfildən Azadlıq meydanında mitinqə icazə verəcək, bu da elə bir ajiotaj və cazibə doğurmayacaq, hansı ki, sonuncu dəfə 2003-cü ilin 16 oktyabrında özünü göstərmişdi. Yəqin ki, bu dəfə meydana yalnız partiya fəalları və boş-bekar adamlar, təqribən 10-15 min nəfər çıxacaq, çox yox.

Və ya tutaq ki, sabah Əli Kərimliyə, müxalifətin digər liderinə birbaşa efir verildi - nə dəyişəcək? Maraq naminə insanlar ona qulaq asacaq, sonra isə çiyinlərini sıxacaq və vaxt itirdiklərinə təəssüflənərək öz işlərinin dalınca gedəcəklər. Yaxud tutaq ki, müxalif liderlərə rayonları sərbəst gəzmək və insanlarla görüşmək imkanı yaratdılar - real olaraq, bu, nə verəcək? Axı, belə görüşlərə də yalnız bir ovuc bekar və məyus olmuş adam gələcək, liderləri narahat suallar, iradlar yağışına tutacaq və sonra da həmin adamlar əllərini yelləyib məyus şəkildə öz evlərinə dağılışacaqlar. Bu da sizə yekun nəticə.

Çünki müxalifətin əvvəlki partiyaları və liderlərinə olan inam-etimad daha yoxdur - onlar o qədər çox uğursuzluğa uğradılar, səhvlər buraxdılar, prinsiplərə sədaqətsizlik göstərdilər, cəmiyyət yavaş-yavaş onlara marağını itirdi. Sonucda düşərgə demək olar hər şeydən məhrum oldu və "sınıq nov"da qaldı.

Avtoritar hakimiyyətin "çirkin işləri" əlbəttə ki, burada öz xüsusi rolunu oynadı, amma axı, iş təkcə bunda deyil. Birincisi, bu "çirkin işlər" qeyri-demokratik ölkədə elə avtoritar hakimiyyətin missiyasına daxildir. Gözləmək ki, iqtidar özünün siyasi qəbrinin qazılmasına müxalifətə kömək edəcək, sadəlövhlük olardı.

İkincisi, müxalifətin fəaliyyətində çoxsaylı çətinlik və problemləri hakimiyyətin "çirkin işləri" ilə izah eləmək mümkündür, ancaq cəmiyyətdə onun etimad kreditinin, imic və nüfuzunun itməsinə görə məsuliyyət ilk öncə müxalifət və onun liderlərinin özlərinin üzərinə düşür.

Şəxsən məndə elə bir xüsusi istək yoxdu, ətraflı şəkildə izah verim ki, niyə düşərgə hansısa 10 il ərzində toplumun inamını tam itirib və siyasi fantoma (keçmiş xəyala) çevrilib. Səbəb çoxdur, hamısını sadalamaq mümkünsüz. Üstəlik, bu məsələlər xüsusi təhlil mövzusudur və qoy onların üzərində ən əvvəl müxalifətin liderləri və fəalları baş sındırsınlar - əgər təbii ki, onlar ayıq, vicdanlı və tənqidi özünü dəyərləndirməyə hazırdılarsa.

Ancaq fakt faktlığında qalır ki, bugünkü müxalifət artıq fantom (xəyali) reallığa çevrilib. Onu siyasi yorğunluq və öz gücünə inamsızlıq bürüyüb. Bu səbəbdən o, demək olar, özünün acınacaqlı müxalif statusu ilə barışıb və olan-qalan gücünü də yalnız rəqibləri aradan qaldırmağa və mövcud statusunu möhkəmlətməyə yönəldib. Əgər növbətçi ritorikanı kənara qoysaq, belə demək olar ki, hazırkı müxalifət bir o qədər hakim rejimlə və cəmiyyətin rifahı uğrunda yox (bu işlərə artıq güc çatmadı), öz daxilində və Qərbin və yaxud elə həmin hakimiyyətin köməyi ilə heç olmasa, xırda siyasi-praqmatik qazanclar uğrunda mübarizə aparır.

Bunu anlamaq çətin deyil - çünki müxalifətin boyu, çəkisi və imkanları azaldıqca onun siyasi planlarının, məqsəd və istəklərinin plankası da enir. Lakin anlamaq razılaşmaq anlamına gəlmir. Zira, bu cür opportunizm və merkantilizmə görə siyasi haqq-hesab həmişə eyni olur: imicin, nüfuzun və cəmiyyətdəki etimadın labüd olaraq düşməsi.

❑ **Elya CƏFƏROVA,**
**minval.az**

Yeni MÜSAVAT
N 304 (6013) 13 dekabr 2014

# "Hakimiyyət yaxın dövrdə strateji seçim etmək zorundadır"

## Sülhəddin Əkbər: "Rusiya xüsusi xidmət orqanlarının xətti ilə bütün MDB ölkələrinə "məxməri inqilablar"ın qarşısını almaq üçün təlimatlar göndərib"

**Müsavat Partiyasının sabiq Məclis sədri, hazırda isə Azad Demokratlar Partiyasının rəhbəri olan Sülhəddin Əkbər "Yeni Müsavat"a müsahibə verib. Sabiq milli təhlükəsizlik zabiti olan müsahibimiz Azərbaycanla bağlı maraqlı proqnozlar səsləndirib və terror təhlükəsi ilə bağlı ilginc məqamları açıqlayıb.**



**Sabiq milli təhlükəsizlik zabitindən şok çağırış: "Azərbaycanın terrorla mübarizə mərkəzi artıq terror təhdidi səviyyəsini narıncı səviyyəyə qaldırmalıdır"**

*Söhbətin əvvəlində yaratdığı təşkilat barədə danışan S.Əkbər ofis kirayələdiyini və əsas diqqətin partiyanın rəsmi qeydiyyata alınmasına yönəldiyini deyib. Artıq qeydiyyatla bağlı 1 saylı Bakı İnzibati İqtisadi Məhkəməsinə müraciət də edilib:*

- Dekabrın 24-nə iclas təyin ediblər. Ancaq çox maraqlıdır ki, iclas məhkəmə aidiyyətinin müəyyən olunması üçün təyin olunub. Bu mənada məhkəmənin səlahiyyətinə aid olmadığı barədə qərarın çıxarılacağı gözlənilir. Qaldırılan məsələ birmənalı olduğu üçün hakim bu işin altına girmək istəmir. Artıq üçüncü dəfə partiyanın sənədləri geri qaytarıldığı üçün rəhbərlik vəkillə məsləhətləşib və məhkəməyə üz tutulub. Bizim əsas diqqətimiz partiyanın qeydiyyata alınmasına yönəlib. Artıq məhkəməyə müraciət etmişik. Mən həmişə açıq danışıram. İnsanların siyasətə həvəsi çox azalıb. Çünki adamlar siyasətdə perspektiv görmürlər, siyasi müxalif partiyalar siyasi sistemdən kənarda saxlanılıb. Proporsional seçki sistemi ləğv olunduqdan, ölkədə azad və ədalətli seçkilər keçirilmədikdən sonra insanların seçki prosesinə, ümumilikdə demokratik prosesə, demokratik dəyərlərin daşıyıcısı olan siyasi partiyalara meyli, həvəsi kəskin azalıb. Biz belə bir ağır şəraitdə fəaliyyət göstəririk. Bunu nəzərə almaq lazımdır.

***- Sülhəddin bəy, bilə-bilə ki, yeni partiyanın qurulması riskli və çətin məsələdir, yenə də ölkənin aparıcı partiyaların birindən uzaqlaşmağa qərar verdiniz. Müsavatdan gedişinizə yenə də haqq qazandırırsınız?***

- Partiyadan gediş məsələsi uzun bir proses oldu, bir neçə il çəkdi. Zamanında səbəblərini də geniş açıqlamışam və buna bir də qayıtmaq istəmirəm.

***- Partiyanıza yeni üzvlərin qəbulu məsələsi nə yerdədir?***

- Bizim partiyanın rəhbərliyində olanların mütləq əksəriyyəti keçmiş müsavatçılardır. Biz hansı partiyadan gəlirsə-gəlsin, bu günə qədər açıqlama verməmişik, gələn şəxslərin bəyanat verməsini istəməmişik. İndi də bizim keçmiş yoldaşlar var, müraciət ediblər. Onlara da məsləhətimiz odur ki, gəlmək fikri varsa da, bunu səssiz etmək lazımdır. Çünki səmimi deyirəm, bu gün onsuz da müxalifətin durumu heç ürəkaçan deyil.

***- Keçmiş partiyanızın keçmiş lideri Rəsul Quliyevlə əlaqələriniz qalırmı?***

- Rəsul Quliyev özü partiyadan istefa verdi. Partiyadan istefa verəndən sonra da bizim münasibətlərimiz siyasi münasibətlərdir. İndiki halda birim hər hansı siyasi münasibətimiz yoxdur, bir-birimizlə əlaqə saxlamırıq.

***- Azərbaycanla Qərb arasında hökm sürən soyuq münasibətləri hansı kontekstdən şərh etmək olar? Siz durumu necə dəyərləndirirsiniz, nə baş verir, bu ziddiyyətlər nədən doğur?***

- Geostrateji durum kəskinləşib. Hətta bəzi ekspertlər yaranmış vəziyyəti yeni "soyuq müharibə" kimi xarakterizə etməyə başlayıb. ABŞ Konqresində 758 saylı qətnamə qəbul olunub və bu sənədlə tanış olduqda anlaşılır ki, ABŞ-la Rusiya arasında geopolitik qarşıdurması yaxın zaman kəsiyində bitən məsələ deyil. Mənim düşüncəm belədir ki, Rusiyanın Krımı ilhaqından sonra ikitərəfli komissiya artıq Putin rejimi barəsində öz qərarını verib. ABŞ, Avropa Birliyi və NATO artıq Putin Rusiyasını durdurmaq istiqamətində hazırlıqlarını görməyə başlayıb. Bu planlar artıq həyata keçirilməkdədir. Mən yaxın gələcəkdə həm ABŞ-la Rusiya, həm də NATO ilə Rusiya arasında münasibətlərin daha da kəskinləşəcəyini gözləyirəm. Bu kəskinləşmə eyni zamanda postsovet məkanında baş verəcək. Bir tərəfdən Putinin Avrasiya İttifaqı layihəsini inkişaf etdirməsi, digər tərəfdən isə Ukrayna, Gürcüstan və Moldovanın Avropa Birliyi ilə yaxınlığı, eyni zamanda NATO ilə daha sıx inteqrasiya siyasətini aparması bu münasibətləri daha da kəskinləşdirəcək. Qarşıdakı ildə ABŞ və NATO-nun bir sıra planları var. Eyni zamanda, Ukraynanın bloklara qoşulmayan ölkə statusunun ləğv olunması məsələsi Ali Radada gündəmə gəlib. Bu, koalision hökumətin də proqramında var. Yəqin ki, Ukrayna yenidən Yuşşenkonun dövründəki siyasətə - NATO-ya inteqrasiya siyasətinə qayıdacaq. Eyni zamanda, Gürcüstanın NATO-ya inteqrasiyası ilə bağlı təkliflər paketi qəbul olunub. Rusiya-Qərb, Rusiya-ABŞ münasibətlərinin kəskinləşməsi fonunda hər iki tərəf Azərbaycan hakimiyyətindən də mövqe ortaya qoymağı, seçim etməyi tələb edir. O baxımdan, Azərbaycan hakimiyyəti yaxın dövrdə strateji seçim etməyə zorlanacaq.

***- Sizcə, hakimiyyət hansı seçimi edə bilər?***

- Azərbaycan hakimiyyəti yenə də vaxt udmaq siyasətini davam etdirəcək. Yəni İranın zamanında apardığı "nə Qərb, nə Şərq" siyasətini davam etdirməyə çalışacaq, bu strateji qarşıdurmada hansı tərəfin qalib gəlməsini gözləyəcək. Ona qədər isə hansısa öhdəliklərlə bağlı addımlar atacağını düşünmürəm. Hansı tərəf daha sərt təzyiq edəcəksə, o tərəfə doğru siyasətini davam etdirəcək. İndiki halda görünən budur ki, Rusiyadan gələn təzyiqləri neytrallaşdırmaq üçün reveranslar edir və Qərbdən məsafəli siyasət yürüdür. Azərbaycanın daxili siyasətində baş verənlər də bunun təzahürüdür.

***- Administrasiya rəhbəri Ramiz Mehdiyevin məqaləsi barədə çox şərhlər verildi. Qərbi tənqidlə dolu məqalə çıxan dövrdə Azərbaycanın xarici işlər nazirinin Avropadakı tədbirdə iştirak etməsi də maraqlı fraqment idi. Sözügedən məqalənin pərdəarxası barədə nə demək olar?***

- Azərbaycanın xarici siyasətini dərin təhlili onu göstərir ki, rəsmi Bakı həm iqtisadi-maliyyə, enerji təhlükəsizliyi sahəsində, hətta təhlükəsizlik və hərbi-texniki sahədə əsasən Qərbə meyl edir. Yalnız siyasi sahədə isə Rusiya ilə yaxınlıq edir ki, bu da rejimlərin xarakteri ilə bağlıdır. Azərbaycan hökuməti belə siyasət aparır ki, ABŞ və Avropa Birliyi xüsusən də enerji təhlükəsizliyi, təhlükəsizlik və iqtisadi sahədə nə istəyirsə, biz veririk, onlar bizim siyasi işlərimizə qarışmasın. Yəni "daxili işlərimiz" dedikləri demokratiya və insan haqları ilə bağlı problemlərin qaldırılmasını istəmirlər. Deyirlər ki, digər sahələrlə bağlı Qərblə sıx əməkdaşlığa hazırıq. Rusiya ilə yaxınlığın da iki başlıca səbəbi var. Birincisi, Rusiya rejimin dəyişməsi ilə bağlı ciddi qərar verə bilər. Eyni zamanda, Qərblə - Avropa Birliyi, NATO ilə daha sıx inteqrasiyaya Rusiyanın neqativ reaksiya verəcəyini bilirlər, Gürcüstan və Ukraynada olduğu kimi.

***- Rusiya həqiqətən də günün birində Azərbaycanda hakimiyyəti dəyişmək istəyə bilərmi?***

- Günün birində dəyişmək istəyə bilər. O halda ki, Rusiya artıq Azərbaycandan Ermənistan kimi birmənalı mövqe istəsin. Konkret desək, günün birində Azərbaycandan Avrasiya İttifaqına qoşulmaq, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv olmaq istənilə bilər. Necə ki, Xəzərdə sahili olmayan ölkələrin hərbi iştirakının qarşısının alınması barədə razılaşma əldə olundu. Belə bir istək olarsa, Azərbaycandan konkret, aydın, birmənalı strateji seçim etməsi istənilərsə və bundan da imtina olunarsa, bəli, Rusiya hakimiyyəti dəyişməklə bağlı qərar verə bilər. Əslində anti-Amerika mövqeyinin başlıca səbəbi də Qərbin Azərbaycanda əməkdaşlıq etdiyi institutların ölkədən çıxarılması da Rusiya ilə bağlıdır. Bu, Rusiyanın həm öz daxilində, həm də MDB ölkələrində "məxməri inqilab"lar gözləməsi ilə də əlaqədardır. Artıq Rusiyanın özündə həm prezident, həm XİN başçısı, həm də Rusiya Xarici Kəşfiyyat İdarəsi səviyyəsində açıqlamalar verilib ki, Qərb Rusiyada "məxməri inqilab" planlaşdırır. Rusiya xüsusi xidmət orqanları xətti ilə bütün MDB ölkələrinə bu "məxməri inqilablar"ın qarşısını almaq üçün təlimatlar göndərib. Azərbaycan da bu təlimat əsasında hərəkətlər edir. Yəni məqsəd Azərbaycanda Qərb tərəfindən planlaşdırılması gözlənilən inqilabların qarşısını almaqdır. Son zamanlar baş verən, sizin də toxunduğunuz məsələləri bu kontekstdə şərh etmək lazımdır.

***- 2015-lə bağlı gözləntiləriniz nədən ibarətdir?***

- Nə qədər qəribə olsa da, Azərbaycanla bağlı proseslər Rusiya ilə çox sıx bağlıdır. Bir tərəfdən neftin qiymətinin dünya bazarında aşağı salınması, eyni zamanda sanksiyaların tətbiqi və kapitalın Rusiyadan kütləvi şəkildə axını Rusiya daxilində ilk növbədə sosial-iqtisadi vəziyyətin ağırlaşmasına gətirib çıxaracaq. Əgər 2015-ci ildə neftin qiyməti kəskin ucuzlaşarsa, 60 dolların altına düşərsə, ekspertlərin və Amerikanın investisiya bankı "Morgan Stanley"in araşdırmalarına görə, bu halda Rusiyanın bütün strateji ehtiyatı gələn il tükənəcək. Belə olan halda artıq Rusiyanın aqressiv xarici, hərbi siyasət yeritməsi çox çətin olacaq. O zaman isə artıq ABŞ, Qərb və NATO keçmiş sovet məkanında, o cümlədən Rusiya daxilində daha aktiv fəaliyyətə keçəcək. Bu mənada gələn il Azərbaycanda Avropa Oyunlarını və parlament seçkilərinin keçiriləcəyini nəzərə alsaq, hakimiyyət gərək dünyada gedən qlobal və regional tendensiyaları nəzərə alsın, dərin analiz eləsin və gec də olsa, ölkədə islahatlara, o cümlədən siyasi islahatlara başlasın, Azərbaycanda tam da olmasa, heç olmasa yarımdemokratik parlament seçkilərini keçirməyə hazır olsun. İndidən artıq ölkədə bütün vətəndaş cəmiyyəti və müxalifətlə geniş dialoqa başlamağın vaxtı çatıb.

***- Deyəsən, artıq ilkin addım atılır. 13 dekabrda Prezident Administrasiyanın şöbə müdiri Əli Həsənovla müxalifətdə təmsil olunan bir qrup partiya sədrinin görüşü olacaq...***

- Bildiyim qədər bu görüşdə mənim dediyim məsələ də qaldırılacaq. Yəni iki başlıca məsələnin qaldırılması nəzərdə tutulur: birinci, siyasi məhbuslarla bağlı məsələnin həlli; ikincisi isə müxalifətlə ümummilli məsələlərdə geniş dialoqun başlanmasına hazırlıq məsələsidir.

***- Ölkə daxilində terror təhlükəsi, təxribatçı qrupların hərəkətə keçməsi nə dərəcədə real görünür. İŞİD-lə əlaqəli şəxslərin həbsindən sonra Azərbaycanın risk qrupuna daxil olduğunu demək üçün kifayət qədər əsaslar varmı?***

- Azərbaycanın daxil olduğu postsovet məkanında həm müharibə gedir, terror ocaqları var, həm də burada dondurulan, amma yenidən alovlanma potensialı böyük olan münaqişələr mövcuddur. O münaqişələrdən biri də Azərbaycanın ərazisindədir. Digər tərəfdən də qonşu regionda, Suriya, Əfqanıstan, İraqda müharibə gedir. Həmin bölgələrdə də Azərbaycan vətəndaşları müxtəlif qruplaşmaların daxilində vuruşurlar. Eyni zamanda zaman-zaman terror təşkilatları, bu təşkilatlara daxil olan şəxslər tərəfindən hədələmələr də olur. Şimali Qafqazdakı vəziyyəti də bura əlavə etsək, görərik ki, Azərbaycan terror təhdid səviyyəsinin yüksək olduğu risk zonasındadır və Azərbaycanda terror təhdid səviyyəsi yüksəkdir. Xüsusən də Azərbaycanda son baş verən hadisələri nəzərə alsaq, belə demək olar. Azərbaycanın terrorla mübarizə mərkəzi artıq terror təhdidi səviyyəsini narıncı səviyyəyə qaldırmalıdır və bu sahədə beynəlxalq birliklə, xüsusən də antiterror koalisiyası ilə çox sıx əməkdaşlıq etməlidir. Üstəlik, qarşıdan Avropa Oyunları gəlir. "Eurovision" yarışması zamanı Azərbaycanda yaranmış vəziyyəti də yəqin hamı xatırlayır. Bu mənada 2015-ci ildə gərginliyin artması gözləniləndir. Gələn il terror təhdid səviyyəsinin yüksəlməsi, eyni zamanda Azərbaycanda ictimai-siyasi aktivliyin artması və ictimai-siyasi sabitliyin pozulma ehtimalı da yüksəkdir...

❑ **Elşad PAŞASOY**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 304 (6013) 13 dekabr 2014

**Azərbaycan öz ərazilərinin işğal altında olmasını nəzərə alaraq hər il hərbi büdcəsini artırır, ordusunu ən müasir silah-sursatla təmin eləməyə çalışır. Bu, ölkəmizin doğal haqqıdır. Çünki ərazi bütövlüyü pozulmuş istənilən ölkə öz müdafiə qabiliyyətini yüksəltməklə bərabər, hücum ordusu qurmağa səy edir.**
**Əfsus ki, torpaqlarımızın qeyd-şərtsiz boşaldılmasını tələb edən BMT, Avropa Şurası və Avroparlamentin qətnamələri hələ də kağız üzərində qalıb. Hələ ki, münaqişənin dinc nizamlanması ilə məşğul olan böyük güclər də erməni təcavüzünə son qoymaq, Azərbaycanın ədalətli tələblərinin yerinə yetirmək maraqlandırmır.**



# Ermənistanın xarici borcları rekord həddə

## Təkcə bir ayda məbləğ 15 milyon dollar böyüyüb; ekspertlərə görə, işğalçı ölkə belə vəziyyətə Azərbaycanla silahlanma yarışına girib imkanından artıq silah-sursat aldığı üçün düşüb...



Bakı, hərbi parad

**Halbuki, BMT Təhlükəsizlik Şurasının Qarabağa dair 4 məlum qətnaməsinin həyata keçirilməsi Şuranın 5 daimi üzvündən üçü - ABŞ, Rusiya və Fransanın birbaşa görəvidir. Onlar isə illərdir Minsk Qrupu çərçivəsində münaqişə tərəflərinə bərabər gözlə baxır, Ermənistanla yanaşı Azərbaycandan da güzəştlər tələb edirlər.**

Problem də ondadır: ərazisinin 20%-i işğal edilmiş Azərbaycandan ermənilərin xeyrinə güzəşt istənilir. Aydındır ki, söhbət ərazi (torpaq) güzəştindən gedir. Demək, Azərbaycan ən çox özünə güvənməli, bir də qardaş Türkiyə ilə hərbi və hərbi-texniki əməkdaşlığı ən yüksək səviyyəyə qaldırmağa nail olmalıdır. Hələ ki, gərəkən addımlar atılır, qarşılıqlı fəaliyyət ildən-ilə genişlənir və yəqin ki, 2015-ci ilin özəllikləri nəzərə alınaraq əməkdaşlıq daha da sürətləndiriləcək.

Heç şübhəsiz həm də bunun göstəricisidir ki, Azərbaycan Qlobal Hərbiləşmə İndeksi - 2014 (GMİ) reytinqində 152 ölkə arasında ilk 10-luqda yer alıb. Xəbər verildiyi kimi, bu barədə Bonn Beynəlxalq Konversiya Mərkəzinin yaydığı məlumatda deyilir. Onluğa həmçinin, İsrail, Sinqapur, Ermənistan, Suriya, Rusiya, Kipr, Cənubi Koreya, İordaniya, Yunanıstan daxildir.

Reytinqi tərtib edənlər Ermənistan və Azərbaycan arasında xeyli müddətdir ki, davam edən münaqişəyə xüsusi diqqət ayırıblar. Ekspertlər qeyd edir ki, hər iki ölkənin ordusuna silahı Rusiya tədarük edir. Ancaq Azərbaycan bəlli olduğu kimi öz hərbi parkını başqa ölkələr - İsrail, Belarus və Ukrayna hesabına da komplektləşdirir.

Qeyd edək ki, Qlobal Hərbiləşmə İndeksi dövlətin hərbi aparatının cəmiyyətə nisbətən çəkisi və əhəmiyyətini əks etdirir. O, hərbi xərclərin ÜDM-ə və səhiyyə xərclərinə nisbətini, həmçinin ağır silahlar və ölkə əhalisinin sayının nisbətini nəzərə alır. Yəni əslində Ermənistanın onluğa düşməsi və Azərbaycanı qabaqlaması onun hərbi qüdrətinin Azərbaycandan üstün olması anlamına gəlmir. Bu, yalnız hərbi xərclərin azsaylı əhaliyə nisbətdə böyük olması hesabına mümkün olub. Çünki Azərbaycan təkcə hərbi büdcəsi Ermənistanın ümumi büdcəsindən böyükdür.

Yeni söhbət düşmən ordusunun göstəricilərinin, döyüş qabiliyyətinin Azərbaycan silahlı qüvvələrinkindən üstün olmasından getmir. Bu, mümkün də deyil. Qənaətimizi düşmən ölkənin müdafiə naziri Seyran Ohanyanın son açıqlaması da təsdiq edir. Ermənistan ombudsmanı tərəfindən İrəvanda təşkil edilən dəyirmi masada çıxış edən Seyran Ohanyan bildirib: "Ermənistan ordusunda kriminal təfəkkür hakimdir. Orduda hələ də "blatnoy" romantika hökm sürür". Onun sözlərinə görə, orduda hökm sürən kriminal təfəkkür üzündən yazılmamış qanunlar qüvvədədir: "Həmin qanunlarla yaşayanlar "şikayət etməyi" kişi işi saymır, "problemləri özləri həll edirlər". Bu isə Ermənistan ordusunda baş verən cinayətlərin kökündə durur".

Bundan əlavə, Ermənistan ordusunun çağırışçı problemi yaşadığı da faktdır. İşğalçı ölkənin həll edə bilmədiyi ən böyük problem isə ildən-ilə ağırlaşan iqtisadi-maliyyə vəziyyətidir. Bunun nəticəsi olaraq Ermənistanın dövlət borcu ildən-ilə artır. Yerli qəzetlərin yazdığına görə, noyabrın 1-ə olan tarixə ölkənin dövlət borcu 4 milyard 464 milyon 796 min dolları keçib. Bu, daim yenilənən mütləq rekorddur. Yalnız 1 ay ərzində dövlət borcunun məbləği 15 milyon dollardan çox artıb. Milli valyuta olan dramın qiymətinin düşməsi ilə iqtisadi iflas daha da dərinləşməkdədir.

Ekspertlər isə hesab edir ki, Azərbaycanla silahlanma yarışına çıxmış Ermənistan bu vəziyyətə imkanından artıq silah-sursat alması üzündən düşüb. İqtisadçılar həm də bildirirlər ki, son illərdə ölkəyə humanitar yardım adı altında verilən vəsaitlər də azalıb. Rəsmi İrəvan həmişə bu vəsaitlərə ümid bağlayıb. Hətta erməni diasporu da Ermənistana göndərilən pul axınının xeyli azaldıb. Görünür, erməni qəzetlərinin yazdığı kimi, məhz ciddi iqtisadi problemlər üzündən hökumət parlamentdən təcili olaraq növbədənkənar sessiyaya yığışmağı xahiş edib. Sessiya bu gün keçiriləcək.

**Rusiyadan Ermənistana fərdi pul köçürmələr də kəskin azalıb. Yalnız 2014-cü ilin oktyabr ayında Ermənistan miqrantlarının İrəvandakı ailələrinə göndərdikləri pullar həmişəkindən 32,5 milyon dollar az olub. Nəticədə, Rusiyadan transfert alanların gəliri keçən ilin oktyabr ayına baxanda 20 faiz azalıb. Bu, ailə büdcəsi üçün ciddi zərbədir.**

# Azərbaycan erməni ailəsini ölkəsinə təhvil verdi

## "Ermənistan öz vətəndaşlarının geri qaytarılması üçün bir dəfə də olsun məsələ qaldırmayıb, hətta azyaşlı uşaqların da taleyi ilə maraqlanmayıb..."



**Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası dekabrın 12-də məlumat yayıb. "Mediaforum" saytının yaydığı məlumatda Azərbaycanda saxlanılan bir erməni ailəsinin təhvil verilməsi barədədir.**

**Məlumatda deyilir:**

Azərbaycan Respublikası beynəlxalq humanitar hüquq normalarına və 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyalarına hörmətlə yanaşaraq, 2010-cu il yanvarın 10-da üzüncü dövlət ərazisində yaşamaq niyyəti ilə respublikamıza qanunsuz keçmiş və o zamandan ölkəmizdə saxlanılan Ermənistan Respublikasının vətəndaşları, 1958-ci il təvəllüdlü Gevorkyan Eqişe Petrosoviç və onun ailə üzvləri - həyat yoldaşı 1982-ci il təvəllüdlü Mardanyan Ruzanna Genoyevna, oğlu 2002-ci il təvəllüdlü Gevorkyan Alfred Yeqişeviç, qızı 2003-cü il təvəllüdlü Gevorkyan Qayane Yeqişevna, oğlu 2006-cı il təvəllüdlü Mardanyan Petros Yeqişeviçi aid olduqları ölkəyə könüllü qayıtmaq barədə müraciətləri əsasında 2014-cü il dekabrın 12-də Azərbaycan-Ermənistan sərhədinin Qazax rayonu, Bala Cəfərli kəndi istiqamətində qarşı tərəfə qaytarıb. Proses Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və Müdafiə Nazirliyi tərəfindən Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə həyata keçirilib və insidentsiz başa çatıb.

Məlum olduğu kimi, ailənin başçısı Y.Gevorkyan Azərbaycan Respublikasının ərazisinə vətəndaşı olduğu ölkədə təqiblərə məruz qaldığı üçün "Yeraz" markalı maşınla Ermənistan Respublikasının Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası ilə sərhəd ərazisini Ermənistan hərbçilərinin intensiv atəşi altında özünün və ailəsinin həyatını riskə ataraq keçmişdi. Y.Gevorkyan və həyat yoldaşı R.Mardanyan ailəsi ilə birlikdə Azərbaycana keçdikləri gün - 2010-cu il yanvarın 10-da Ermənistana qayıtmaqdan imtina etmiş, üçüncü ölkəyə göndərilmələri barədə Azərbaycan hökumətinə yazılı müraciət ünvanlayıblar.

Prosedura uyğun olaraq onların müraciəti BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (BMT QAK) Azərbaycandakı nümayəndəliyinə göndərilib və bu qurum tərəfindən ailəyə qaçqın statusu verilərək göndərilmələri üçün ölkənin müəyyənləşdirməsi işinə başlanıb. Lakin 5 ilə yaxın müddət keçməsinə baxmayaraq erməni ailəsini qəbul edəcək ölkə tapılmayıb və nəhayət, onlar aid olduqları ölkəyə qayıtmaq barədə qərar veriblər.

Ailə Azərbaycan ərazisində saxlanıldığı andan etibarən Beynəlxalq Qızıl Xaç Komitəsinin himayəsi altında olub. Bu qurum və BMT QAK tərəfindən saxlanma yerində onlara müntəzəm baş çəkilib. Hər iki təşkilat bu ailənin saxlanma şəraitinin beynəlxalq humanitar hüquq normalarına uyğun olduğunu həmişə təsdiq edib, onların saxlanma şəraiti ilə bağlı irad bildirməyiblər. Ailə müntəzəm olaraq tibbi müayinədən keçirilib və sağlamlıqları ilə bağlı hər hansı problem olmayıb.

Bütün bunlara baxmayaraq Yeqişe Gevorkyan bir çox hallarda özünü emosional apararaq müxtəlif tələblər irəli sürüb, beynəlxalq təşkilatların ailəyə baş çəkən nümayəndələrinə "iradlar" bildirib, hətta intihar edəcəyi, ailə üzvlərinə fiziki xətər yetirəcəyi və aclıq elan edəcəkləri ilə bağlı dəfələrlə onları şantaj edib, hədələyib, təhqir etməkdən belə çəkinməyib. Bu hərəkətləri ilə o, müvafiq beynəlxalq qurumlara təsir edərək ailəni tezliklə üçüncü ölkəyə göndərməyin vacibliyini çatdırmağa çalışıb.

**Gevorkyanların Azərbaycanda saxlandıqları müddət ərzində Ermənistan Respublikası öz vətəndaşlarının geri qaytarılması üçün bir dəfə də olsun beynəlxalq təşkilatlar qarşısında məsələ qaldırmayıb, hətta azyaşlı uşaqların da taleyi ilə maraqlanmayıb.**

**İki gün öncə Gəncənin Avtozavod qəsəbəsi adlanan ərazisində məskunlaşan Kəlbəcər köçkünləri ilə məmurlar arasında qanlı toqquşma baş verdi. Gəncənin Nizami rayonunun icra başçısının köçkünlərin evlərini sökməyə başlaması məlum sonluqla yekunlaşdı; baş verən hadisə zamanı başçının özünün başını yardılar, polislər və kəlbəcərlilər xəsarət aldılar.**

# Gəncədəki məmur-vətəndaş toqquşmasının üzə çıxardığı həqiqət

## "Sabah nazirlərin və komitə sədrlərinin də başını yaracaqlar": **Natiq Miri:** "Hakimiyyətdə bəzi məmurlar bu cür problemlərin qalmasında maraqlıdırlar"

**Bu baş verənlər məmurların hələ də Quba, İsmayıllı olaylarından nəticə çıxarmadığını göstərir.**

Gəncədəki toqquşmadan əvvəl İsmayıllıda, ondan qabaq isə Qubada baş verənlər qiyamlar da məhz bu səbəbdən qaynaqlanmışdı. Qapalı idarəetmə, xalqla hesablaşmadan qərar vermə belə acı sonluqları labüd etmişdi. Ortada nümunə sayila biləcək davranışlar, xidmətlər də var. Quba hadisələri zamanı deputat Vahid Əhmədovun xalqı sakitləşdirə bilməsinin arxasında bircə nüans dayanırdı - xalqla daimi ünsiyyət və problemlərin həllinə bir deputatın imkanı daxilində köməklik etməsi daha böyük çaxnaşmaların qarşısını aldı. ASAN xidmət modeli də indiki Azərbaycanın reallıqlarında çox müsbət qarşılanıb. Maraqlıdır, nədən hakimiyyət bu modeli bütün ölkə boyunca tətbiq etmir, məmur korpusunu yeniləmir?

**Politoloq Natiq Miri** deyir ki, hazırki idarəetmə üsulları köhnəlib və yenilənməsi ehtiyacı da köhnəlmək üzrədir: "Azərbaycanda 20 ildir ki, çox qüsurlu bir idarəetmə var. Əhali bu qüsurlu idarəetmənin əziyyətini çəkir. Əhalinin problemləri, ehtiyacları ödənmədən yeganə qazanc mənbəyindən və ya evlərindən məhrum etmək dünya praktikasında rast gəlinməyən idarəçilik üsuludur. Amma Azərbaycanda belə hallar tez-tez baş verir. Azərbaycanda məmurların vətəndaşlarla davranış etikasında ciddi problemlər var. Bunlar təcili aradan qaldırılmalıdır. Nə qədər ki, bu problemlər həll edilməyib, əhali ilə hakimiyyət arasında münasibətlər gərgin olaraq qalacaq".

**N.Miri deyir ki, hakimiyyət bu problemləri həll etmək üçün zaman-zaman müəyyən addımlar atıb, amma hər dəfə başlanğıc nöqtəsinə qayıdıb:** "Hakimiyyətdə məmurlar var ki, bu cür problemlərin qalmasında maraqlıdırlar. Çünki belə problemlər korrupsiya və rüşvətxorluq üçün çox yaxşı zəmin yaradır. Çoxsaylı baryerlər yaradıb xalqdan rüşvət alırlar, böyük pullar qazanırlar. Belə idarəetmə dəyişməli və bütün məsələlərin həlli hüquq çərçivəsində olmalıdır. Əhali ilə məmurların görüşü minimuma endirilməlidir".



**N.Miri elektron hakimiyyət layihəsinin işlək olmamasını da hakimiyyətdəki qrupların maraqlarına cavab verdiyini söylədi:** "Xüsusilə strateji sahələr var ki, elektron hökümət layihəsinin icrasından tamamilə kənarda qalıblar. Həmin sahələrdə böyük pullar qazanılır. ASAN xidmət modelinin tətbiqi də bütün sahələrdə köklü dəyişikliklərə səbəb ola bilər. Bu yolla ölkədə illərlə inkişafın qarşısını alan, əhalinin normal yaşayışını əngəlləyən problemlərin qarşısını birdəfəlik həll etmək, əhalinin gəlirlərinin artmasını təmin etmək olar. Əks təqdirdə icra başçıları da döyüləcək, sabah nazirlərin və komitə sədrlərininin də başını yaracaqlar. Bu da cəmiyyətdə yeni qarşıdurmanın bünövrəsini qoya bilər. 2015-ci il Azərbaycan üçün yeni sistemə keçidin başlanğıcı olmalıdır".

**Politoloq deyir ki, hazırki vəziyyətdən mümkün qədər tez yaxa qurtarmaq, yeniliyi tətbiq etməkdən çəkinməmək lazımdır:** "Məmurlar bunu istəmirlər. Çünki birbaşa ciblərinə ziyan olacaq. Onların ciblərinə axan milyonlar Azərbaycanın bütün dünyada biabır olunması hesabınadır. Çox yüksək səviyyədə göstəriş verilməli və modern idarəçilik üsuluna keçirilməlidir. Əhali bürokratik əngəllərdən azad edilməli, bununla da dövləti və milləti problemlərdən qurtarmaq vacibdir".

**N.Miri Azərbaycanda dəyişikliklərin inqilabla deyil, tədricən inkişafla başlanacağı ssenarisinin ölkə üçün ən ideal variant hesab edir:** "Tədrici inkişafa əsaslanan islahatların Azərbaycanda aparılması arzuolunandır. Azərbaycanda Ukraynada baş verən qarşıdurmaların baş verməsi və günahsız insanların tələf olmasına ehtiyac yoxdur. Belə bir informasiya da var ki, ölkə rəhbərliyi tədrici inkişafa əsaslanan yeni sistemə keçidlə bağlı müəyyən qərarı verib. 2015-ci ildən bu istiqamətdə müvafiq addımlar atılacaq. Bu prosesin ləngiməsi ölkədə yeni qarşıdurma ocaqları yaradacaq".

**N.Miri iqtidarın müxalifətlə dialoqa qərar verməsini də atılacaq addımlara hazlırlıq olduğunu hesab edir.**

❑ **E.MƏMMƏDƏLİYEV**

# Ölkə jurnalistikasının müdafiəçisi çətin durumda...



## Media Hüquqları İnstitutu ofisindən çıxır, icarə müqaviləsi bitib, hesabda həbs var

**Onlar daim medianın yanında idilər, jurnalistlərlə bağlı hər hansı olaya dərhal reaksiya verər, bəyanat yayar, media ilə bağlı aksiyalarda əsas təşəbbüsçü olardılar. Media ilə bağlı təlimlərdə, maarifləndirici aksiyalarda da onların adı öndə olardı. Onlar çoxsaylı məhkəmə proseslərində də jurnalistin yanında idi və pulsuz hüquqi yardım göstərirdilər. İndi isə bir neçə aydır ki, sıxışdırılırlar, nəticə olaraq fəaliyyətləri dayandırılmış durumdadırlar. Söhbət Media Hüquqları İnstitutundan (MHİ), onun əməkdaşlarından gedir.**

Təxminən dörd ay əvvəl fəaliyyətini dayandırdığını bəyan edən təşkilat artıq yerləşdiyi ofisi də tərk edir. Səbəblər çox və ciddidir. **Təşkilatın rəhbəri, vəkil Rəşid Hacılı** bir neçə aydır ki, mətbuatla təmaslarını kəsib və təşkilatdakı işçilər könüllülər kimi fəaliyyət göstərirlər. Artıq onlar paytaxtda icarəyə götürdükləri ofisdən də çıxmağa məcburdurlar. Çünki icarə müqaviləsi bitib, yenisini bağlamaq və ödəmək üçün isə maliyyə yoxdur.

Əməkdaşımız MHİ-nin ofisində olub və əməkdaşlarla söhbətləşib. Ofis avadanlıqları, stollar və kompyuterlərin bir hissəsi otaqların divarları boyu düzülüb, ofisdə köç ab-havası var. **Təşkilatın eksperti Xalid Ağəliyev** deyir ki, icarə müqaviləsi noyabr ayının sonunda bitib, yenisini bağlamaq mümkünsüzdür: "Çünki pul yoxdur, təşkilatın hesabına həbs qoyulub. Ofisdən çıxmalıyıq. Bir neçə gündür fikirləşirik ki, avadanlıqları aparıb haraya yığaq".

**X.Ağəliyevin sözlərinə görə, təşkilat bu ilin avqustunda fəaliyyətini dayandırdığını elan etsə də, onlar könüllü olaraq indiyədək işləyiblər:** "İcarə müqaviləsi noyabrın sonuna qədər idi, hesabda həbs olsa da, heç olmasa, icarə pulu əvvəlcədən ödənilmişdi. Buna görə tam fəaliyyətsiz qalmadıq, yenə məhkəmələr davam edirdi, işlər vardı, hüquqi yardımları davam etdirdik. Amma artıq bu da mümkün deyil. Pul yoxdur, artıq ofis də yoxdur".



**MHİ təmsilçisinin sözlərinə görə, təşkilatın vəkilləri başqa işlərə də çıxdıqlarından, MHİ ilə bağlı yarımçıq qalmış işləri görə bilirdilər. İndi isə ofisdən çıxmaları onların bir yerə toplaşmalarını və fəaliyyətlərini mümkünsüz edir:** "Kollektiv kimi bir yerdə oturmaq vacibdir. Bir az boşluq olsa, hamı dağılıb gedəcək. Bir neçə ay pulsuz qalmaq mümkün deyil, amma biz bunu etdik. İyul ayında hesabımıza həbs qoyulub. Məhkəməyə vermişik, məhkəmə isə iddiamızı təmin etməyib, hazırda məhkəmə davam edir. Onunla paralel olaraq bizdə vergi yoxlaması da aparıldı və MHİ-ni cərimələdilər. Biz Vergilər Nazirliyinə apelyasiya şikayəti vermişik. Cərimə ilə bağlı qərarın ləğv olunmasını istəyirik, çünki əsaslı deyil. Həmçinin hesabımıza qoyulan həbslə bağlı Baş Prokurorluğa müraciət etmişik ki, hesabdan həbs götürülməsi ilə bağlı təqdimat versin. Ümid edirik ki, köməyi olacaq. Çünki o başlanmış cinayət işinin bizim təşkilatla heç bir əlaqəsi yoxdur. Digər tərəfdən, başqa bir problem qrantların qeydiyyatı ilə bağlıdır. Bizim donorlarla təxminən bir neçə illik müqavilələrimiz var idi, bir neçə layihə icra edəcəkdik. Amma indi həm hesabda həbs olduğuna görə, həm də Ədliyyə Nazirliyi qrantları qeydiyyata almadığına görə işləyə bilmirik. Yəni MHİ-nin əsas böhran vəziyyətinə gəlib çıxmasının səbəbi hesaba həbs qoyulması və Ədliyyə Nazirliyinin qrant müqavilələrini qeydiyyata almamasıdır. Heç bir izah da vermirlər. Biz 12 ildən artıqdır fəaliyyət göstəririk. İndiyə qədər qrant müqavilələrinin qeydiyyata alınması ilə bağlı hansı formada müraciət etmişdiksə, sənədləri necə təqdim etmişdiksə, eyni qaydada müraciət etmişik. Amma yenə heç bir cavab vermirlər. Bir neçə dəfə məktubla müraciət etmişik, ancaq vəziyyət düzəlmir. Ümumiyyətlə, qrantların qeydiyyatı ilə bağlı qeyri-müəyyən bir durum var. Vəziyyətin düzələcəyinə ümid edirik, başqa heç nə... Ümid edirik ki, bildirişləri yaxınlarda ala biləcəyik və fəaliyyətimizi bərpa edəcəyik".

**Təşkilat fəaliyyətini dayandıranda isə on nəfərlik heyətlə işləyirdi.** "On nəfər fəaliyyət göstərirdik. Layihələrimizdə çalışanların sayı on nəfərdən çoxdur. Təlimlər də keçirirdik, müştərilər də gəlirdi. Yəni daha iri ofisə ehtiyacımız vardı. Amma artıq buranı boşaltmaq məcburiyyətindəyik. Təbii ki, ümumi narahatçılıq var. Amma ümumilikdə şəraiti dəyişmək üçün neyləyə bilərik? Bizim əlimizdən nə gəlir ki? Ölkədə onlarla təşkilat, bəlkə yüzlərlə təşkilat eyni durumdadır. Bəlkə ümumilikdə nəsə etmək olar", - deyə X.Ağəliyev vurğulayır. O deyir ki, bir neçə QHT təmsilçiləri ilə vəziyyətdən çıxış yolu axtarılır, müzakirələr aparılır: "Görüşürük, məsləhətləşirik, vəziyyətdən çıxış yolu axtarırıq. Amma hazırda qeyri-hökumət təşkilatlarının hansısa addımının durumu dəyişəcəyi o qədər də inandırıcı deyil. Bu sahədə hökumət gərəkli addımlar atmalıdır. Bizim həll edəcəyimiz məsələ deyil".

**MHİ-nin hüquqşünası Elçin Sadıqov** də bildirir ki, vəziyyət ağırdır: "Hesabda həbs var, buna görə vəsaitimizdən istifadə edə bilmirik. Layihələr yarımçıq qalıb. Artıq ofisin son avadanlıqlarını da yığırıq ki, köçək. Bir neçə ay idi maaş ala bilmirdik, vəziyyət yaxşı deyildi. Bundan sonra yəqin ki, müstəqil olaraq vəkillik fəaliyyətimi davam etdirəcəm. Amma yenə də qəzetlərə, jurnalistlərə yardım etməyə hazıram".

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 304 (6013) 13 dekabr 2014

# "Qarabağ"ın oyanmayan qara bəxti - dünya etiraza qalxdı

## Çex hakim Ağdam klubunun tarixi şansını sonuncu dəqiqədə vurulan qolu qeydə almamaqla dəfn etdi; UEFA-ya şikayət olunacaq

**Əslində Qarabağın adı gələn yerdə haqsızlıqla üzləşməmək mümkün deyildi. Erməni işğalında olan Ağdamın "Qarabağ" adlı futbol klubunun isə dekabrın 11-də qarşılaşdığı ədalətsizliyə bu dəfə dünya birliyi göz yummadı.**

Türkiyə, İspaniya, Ukrayna mətbuatı, hətta UEFA-nın rəsmi saytı, ayrı-ayrı idman şərhçiləri "İnter"ə vurulan qolun təmiz olduğunu təsdiqlədilər. İtalya klubunun oyunçusunun özü də hakimə topun ayağına dəyərək tora daxil olduğunu söyləmişdi. Qərar isə dəyişmədi və Avro Liqanın qapıları bu mövsümdə haqsız yerə "Qarabağ"ın üzünə qapadıldı.

"Qarabağ"ın halal qolunu kor-kor, gör-gör yedilər. İndi hesaba alınmayan bu qol hələ çox müzakirə olunacaq. Rusiyalı məşhur şərhçi Georgi Çerdantsevin dediyi kimi - "Qarabağ"ı öldürdülər. Və yaxud facebook-da italyan azarkeşlərin azərbaycanlıları çex hakimi Miroslav Zelinkanı öldürməyə çağırışı dünyanın bu qolu təsdiqləməsinə sübutdur.

"Dnepr" klubunun futbolçusu Sergey Kravçenkonun açıqlamasında "bəxtimiz onda gətirdi "Qarabağ"ın təmiz qolu sayılmadı" deməsi artıq bütün mənzərəni aydınlaşdırır. Sadəcə, Qarabağ adı varsa, Azərbaycana qarşı ədalətsizlik olmalı idi. Oldu da...

### Prosineçki: "Bir nəfərin özbaşınalığı..."

**AFFA-nın baş katibi Elxan Məmmədov** deyib ki, bu, əsl dram idi: "Biz uzun müddət bu qərarı müzakirə edəcəyik. Başa düşə bilmirəm ki, qapının yaxınlığındakı əlavə köməkçi hakim hara baxırdı?! Axı o, qolun qaydalar çərçivəsində vurulduğunu baş hakimə deyə bilərdi".

**Millimizin yeni baş məşqçisi Robert Prosineçki** də qərarla bağlı susmayıb: "Bir nəfərin özbaşınalığı, ağlasığmaz qərarı bütün Azərbaycan xalqını məyus etdi. Başa düşmürəm, nəyə görə hakim təmiz qolu qeydə almadı?! "Qarabağ" həmin oyunda qalib gəlməliydi. Təəssüf ki, hakimin bu qərarı azarkeşlərin qəlbində silinməz iz qoydu".

"Həmin epizoddakı qərəzli qərarla bağlı əlimizdə fakt yoxdu. Amma UEFA-nın hakimlərindən bu cür səhv gözləmək ağlasığmazdı". **AFFA Hakimlər Komitəsinin sədri Xaqani Məmmədov** belə deyib. Onun fikrincə, iki halda oyun yenidən keçirilə bilər: "Biri vaxt, digəri isə "lipa" dediyimiz məsələ zamanı. Doğrudan da, həmin vaxt oynanılmayıbsa, buna görə etiraz etmək olar".






"Bakıda keçirilən "Qarabağ" -"İnter" oyununda nə baş verdiyini bilmirəm. Qoy bunu araşdırsınlar". Bu sözləri isə "Dnepr"in oyunçusu Artyom Fedetski deyib. Fedetski Bakıdakı hakim səhvinin araşdırılmalı olduğunu bildirib:

"Qalmaqallar ancaq Ukrayna çempionatında olası deyil ki... Bizdə hakimlər matçdan sonra azarkeşlərin əlindən tribunanın altına qaçırlar. Ola bilər ki, Bakıda da nəsə olub. Araşdırsınlar, bunun üçün UEFA, FİFA var. Biz isə öz vəzifəmizin öhdəsindən gəlmişik".

### Rəşad Sadıqov: "Bir daha belə şans olmayacaq"

**"Qarabağ"ın kapitanı Rəşad Sadıqov** danışmağa söz tapmadığını söyləyib: "Almeydanın qolundan sonra bir anlığa hamımız sevindik, növbəti mərhələyə adlayacağımıza ümid etdik. Görünür, qismət deyilmiş. Hamımıza zənglər, mesajlar gəldi ki, hakim qolu niyə saymadı. Özümüz də bilmədik niyə belə qərar qəbul etdilər. Qoldan sonra baş hakimə baxdım, o isə 10-15 saniyə yan-xətt hakimi ilə danışdı. Çünki laysmanın nə qərar verdiyini anlamırdı. Amma referi özü epizodu dəqiq görmüşdü. Sadəcə, köməkçisinin nə dediyini anlaya bilmirdi. Ondan fikrini bir neçə dəfə soruşdu. Sonra deyəsən, başı ilə ofsayd olduğunu göstərdi. Şəxsən mənim üçün bəlkə bir daha belə şans olmayacaq. Çox istəkli idik. Əlimizdən gələni də etdik. Nə bilim... Çox deyirdilər ki, heyətimiz zəifdir, meydana ikinci heyətlə çıxırıq, komandanı gücləndirmək üçün müdafiəçilərdən istifadə edirik, braziliyalı futbolçuların hesabına oynayırıq".

### Qurban Qurbanov: "Təmiz qol vurulmuşdu"

Bütün bu bəyanatlara və etirazlara baxmayaraq, əsas yük klub rəhbərliyinin üzərinə düşür. "Qarabağ" UEFA-ya şikayət etməyə hazırlaşır. **Klubun vitse-prezidenti Tahir Gözəl** bildirib ki, nə lazımdırsa ediləcək və sona qədər bu məsələnin üstün gediləcək: "Stadionda oturduğum yerdə qolu görmürdük. İndi hər şeyə baxmışam. "Qarabağ" "İnter"ə qalib gəldi. Sadəcə, hakim qolu saymadı. "Qarabağ" dekabrın 15-i püşkdə olmalı idi. UEFA-ya şikayət olacaq. "Qarabağ" sahibsiz deyil. Nəticəyə təsir etməsə də, ədalət bərpa olunmalıdır. Tarixi qələbə əlimizdən alındı. Rəhbərlik olaraq futbolçulara psixoloji təsir etmək istəməzdik. Klubumuz Avropada çıxışlarını davam etdirəcək. Yəni gələcəkdə yenə mübarizə aparacağıq. UEFA bundan sonra oyunlarımıza daha təcrübəli hakimləri göndərməlidir. Biz hər zaman böyük hədəflər uğrunda yarışırıq. UEFA-nın hədəfi doğrudu. Biz də güman edirik ki, hakimin səhvini onlar təsdiqləyəcəklər. Bu nəticəni dəyişməsə də, mənəvi cəhətdən önəmlidir klub rəhbəri kimi məqsədim rəqabətpərəst ruhu ilə həyata davam etməkdi. İstəmirəm ki, bu məsələnin üzərində çox dayanaq. Çünki futbolçuların da əhvalı korlanır".

"Bu oyun haqda çox danışmaq istəmirəm. Azarkeşlərə çox sağ ol deyirəm. Bütün matçlarda bizim yanımızda oldular. Pis sonluq olmadı. Futbolçularıma təşəkkür edirəm, çox çalışdılar. Zədəlilərimiz də oldu. Bəlkə də bu, bizim üçün böyük zərbə oldu. Eyni zamanda, böyük bir təcrübə qazandıq".

Bu sözlər isə ilin adamı hesab ediləcək, qazanılan uğurların memarı olan baş məşqçi Qurban Qurbanova məxsusdur. Hər zamankı kimi təmkinli və soyuq başla baş verənləri izləyən Qurbanov bunları söyləyib: "İki videoyazıya baxdıq. Təmiz qol vurulmuşdu. Top rəqibin futbolçusuna dəyərək qapıya daxil olmuşdu. Hakimin qərarı bizə qaranlıq qaldı. Belə bir qərar vermək böyük risk idi. Bizə başqa söz demək düşməz".

***

Onu da bildirək ki, bu qarşılaşmada çex hakimin verdiyi qərarı siyasi motivlərlə bağlayanlar da var. Hətta məsələ Çexiyanın "Peeple in Need" təşkilatı ilə bağlı yaşanmış qalmaqalla da əlaqələndirilir.

"Qarabağ"a qarşı haqsızlıqdan sonra stadionda baş verənlər barəsində yazmağa adamın əli gəlmir. Ancaq görməzlikdən də gəlmək olmur. İlk növbədə təşkilatçılıq bərbad idi. Media sektoruna qonaq biletləri əldə edən onlarla azarkeş matçı ayaq üstə izləməli oldu. Əvvəlcədən qonaqların və oturacaqların sayı hesablanıb biletlər paylanmalı idi.

Çünki yer sayı olmadığına görə kim-kimin yerində istəyirsə otura bilirdi. Bundan başqa, stadiona müxtəlif istiqamətlərdən giriş mümkün olsa da, polis hər yeri qapayıb, yalnız əsas girişdən içəri buraxırdı.

Media sektoruna hər zaman digər girişdən asanlıqla keçmək olurdu.

**Bu dəfə buraxmadılar və əsas girişdə olan polis kordonu keçid üçün darısqal bir cığır saxlamışdı. Polis bütün qapıları bağlayıb, divarın küncündən azarkeşləri bir-bir buraxırdı.**

**❑ Emil SALAMOĞLU**
**Fotolar müəllifindir**

# Zombi və manyak sözləri dilimizə necə gəlib?

## Uzaq Haitidən bütün dünyaya yayılan ifadənin tarixi

**Son illərdə dialektimizdə zombi, manyak kimi sözlər tez-tez işlədilir. Ölkə mətbuatında da bu cür ifadələrə rast gəlinir. Maraqlıdır, çoxumuz bu sözlərin mənasını, mənşəyini bilirikmi? Bu jarqon tipli sözlər dilimizə necə gəlib?**

Bu suallara cavab tapmaq üçün kiçik bir araşdırma apardıq. Öncə başlayaq zombidən. Zombi sözü "canlı meyit" mənasını verir. Zombi şüursuz, əqidəsiz, iradəsiz insana deyilir. Bu tip qabaqcadan ona verilmiş tapşırığı yerinə yetirmək üçün hər şeyə hazırdır. Bu cür insanlar itaətkarlıqla qulluq etməyə, lazımi vaxtda istənilən adamı, ailəsini, hətta özünü belə öldürməyə qadirdir. Belə adamlara tərəddüd, peşmançılıq, maraq və sairə kimi hisslər yaddır. Onu da qeyd edək ki, zombi sözü dünyaya uzaq Haitidən gəlib. İnsanları zombiyə çevirməyin bir sıra metodu mövcuddur və praktikada bunlardan əsasən ikisindən geniş istifadə edilir: kimyəvi və psixodinamik metod. Haitidə kimyəvi metodun sirri xüsusi məxfi saxlanılıb və yalnız nəsildən-nəslə ötürülüb. Bu metodun sirri isə çox sadədir: zombiyə çevrilməsi planlaşdırılan adamın yeməyinə qabaqcadan dörddişli balıqların (iynəbalıqların, dimdikburun balıqların) ətindən hazırlanan xüsusi zəhər - tetrodoksin qatılır və o, yeməyi yeyən şəxs dərhal kliniki ölüm keçirir.

Qeyd edək ki, tetrodoksin ən güclü zəhər sayılan kalium sianiddən 500 dəfə güclüdür. Belə ki, həmin balıqların əsasən dəri örtüyündə, qaraciyərində, süd, ikra və sairədə toplanan bu zəhər sinir sistemini iflic edən zəhərlər sırasına daxildir və dərhal güclü stupor *(quruma, qıc olma, bayılma)* törədir. Bundan sonra gələcək zombi torpağa basdırılır və müəyyən müddət orada saxlanılır. Torpaqdan qazılıb çıxarıldıqda isə gözünü açıb ilk gördüyü "xilaskarının" əbədi şüursuz quluna çevrilir. Zombiləşdirmənin psixodinamik metodlarının əsasları isə bu yaxınlarda işlənib hazırlanıb. Amerika psixoloqlarının apardığı belə bir təcrübə məlumdur: müəyyən bir filmin lentinə hər 25 kadrdan bir belə bir elan yerləşdirilir: "Coca-cola için!". Filmin nümayişi zamanı bu söz saniyənin iyirmi beşdə biri qədər vaxtda görünüb yox olduğundan (kinofilmlər bir saniyədə 25 kadr sürəti ilə verilir) tamaşaçılar təbii ki, onu oxuya bilmirlər və filmin axırına qədər də, bu əlavə təsirdən xəbərsiz oldular. Lakin filmin qurtarması ilə hamı bir nəfər kimi yaxınlıqdakı Coca-cola köşkünə qaçıb, bu içkidən alıb içir. Məsələ ondadır ki, insanın bu cür ani təsirləri dərk edib-etməməsindən asılı olmayaraq, onlar hissiyyat tərəfindən qəbul edilir və hiss olunub dərk edilməyən informasiyalarsa itməyib, birbaşa təhtəlşüur sferasına keçir. Oradansa fərdin gələcək bütün fəaliyyətinə aktiv təsir göstərir. Hipnozun belə funksiyası isə elmdə çoxdan məlum olan faktdır. Qeyd edək ki, hazırda da, müxtəlif siyasi, hərbi, iqtisadi, elmi və sairə məqsədlərin həyata keçirilməsində zombi əməliyyatından istifadə olunmasına dair çoxsaylı faktlar mövcuddur.



**Manyak sözü isə əslində bir psixoloji xəstəliyin adıdır.** Bu maniakos - yəni maniyası olan adam deməkdir. Manyak əslində adam öldürən yox, öz içindəki insanı məhv edəndir. Manyaklar daha çox serial qatil kimi tanınırlar.

Manyakları görkəminə görə seçmək mümkün olmur. Çox alicənab, ziyalı görkəmlilərin də arasından manyak çıxa bilir, divanə görünüşlü, gözündən dəlilik yağanlardan da. Onların sadəcə davranışları diqqəti dərhal cəlb edir: manyak daim yan-yörəsini diqqətlə müşahidə edir, ətrafını baxışları ilə nəzarətdə saxlamağa çalışır. Psixoloq Yandiyev bildirib ki, manyak göz həbsində saxladığı qurbanını araşdırdığı vaxt kənar bir qüvvənin də onu müşahidə etməsindən narahat olur. Bunu fərq etdiyi anda manyak da yoxa çıxır. Qurbanını təqib prosesində manyakın gözləri, qulaqları ilə yanaşı ürək döyüntüləri də ona yardımçı olur. Yaxalanma təhlükəsi yaxınlaşan kimi manyak hadisə yerindən dərhal uzaqlaşır. Bu təhlükəni isə o intuitiv olaraq dərhal duyur. Əgər manyak qorxudulubsa, o, bir müddət sonra təkrarən hadisə yerinə qayıdacaq. Daha bir vacib detal: manyaklar öz qurbanlarını təqib etdikləri kimi, iz itirmək üçün onların qabağına da düşə bilirlər. Psixoloq məşhur manyak Vladimir Muxankinin dediklərinə əsasən bildirir ki, bu adamlar qurbanları tərəfindən qəfil yaxalandıqları halda dilləri pəltək vurur, utanır və qorxaqlıqla hadisə yerini tərk edirlər. Britaniya alimləri isə insanların manyaklığa və işgəncəyə meylli olub-olmamasını müəyyənləşdirən üsullar tapıblar. Məsələn, psixopatlar - təhlükəli adamlardır. Vicdan anlayışından uzaqdılar, amma bir çox hallarda intellektual cəhətdən çox inkişaf etmiş, ziyalı insanlar olurlar. Ünsiyyət zamanı diqqət cəlb etməyi bacarırlar. Emosiyalarını gizlətməyi, insanlara xoş təsir etməyi bacarırlar. Psixopat qatillərin bu cəhətləri onlara uzun illər boyunca yaxalanmadan öz arzularını həyata keçirməsinə imkan yaradır.

**❑ Günel MANAFLI**

YENİ MÜSAVAT
N 304 (6013) 13 dekabr 2014

# Bank intihar edən qadının ailəsinə güzəşt edəcək

## Hüquqşünas deyir ki, bank borcu tamamilə ləğv edə və ya hissə-hissə ödənilməsinə icazə verə də bilər

**"AG Bank" intihar edən Zeynəb Muradovanın ailəsinə kifayət qədər güzəşt edəcək". Bu haqda adıçəkilən bankın əməkdaşı "Yeni Müsavat"a bildirib. Ötən saylarımızda xeyli miqdarda sələm və kredit borclarını ödəyə bilmədiyi üçün intihar edən üç uşaq anası, 30 yaşlı Zeynəb Muradova haqda məlumat vermişdik. Mərhumun əri Mehman Hüseynov "Yeni Müsavat" vasitəsilə "AG Bank"a müraciət edərək bildirmişdi ki, yoldaşının götürdüyü borclarını ödəmək imkanı olmadığından onun ailəsinə güzəşt edilsin.**


Zeynəb Muradova

Bu çağırışla əlaqədar olaraq əməkdaşımız adıçəkilən banka müraciət edib. Bankın inzibati şöbəsindən İlahə Mahmudova bildirib ki, mərhumun əri Murad Hüseynov olanlar barəsində məlumat verib, məktub vasitəsilə müraciət edərsə, qalıq borc haqda danışıq aparmağa hazırdılar: "İntihar hadisəsi barədə məlumatımız yox idi. Buna görə çox təəssüf edir, mərhumun ailəsinə başsağlığı veririk".

**M.Hüseynov qəzütimizə açıqlamasında bildirmişdi ki, problem vaxtında həll edilməsə üç azyaşlı uşağı çöldə qala bilər:** "Mərhum həyat yoldaşım bibisinin evini banka girov qoyub. Ordan da bildirirlər ki, dekabrın 20-nədək yerdə qalan borc ödənilməsə, ev hərraca çıxarılacaq. Beləliklə, uşaqlar yenidən çöldə qalacaqlar. Zeynəb bankdan 22 min götürüb, faizlə birlikdə 28 min edirdi. Biz birtəhər 18 mini ödəmişik, yerdə qalan 10 mini ödəməyə heç cür imkanımız yoxdur. Üstəlik digər iri miqdarda borclar var, hansı ki, onların ucbatından həyat yoldaşım özünü asaraq intihar edib".

*Maraqlıdır, mövcud situasiyada hüquqi baxımdan bank hansı güzəştlərə gedə bilər?*

**Vəkil Müzəffər Baxışov** bildirdi ki, ödəniş məsələsində istənilən məqamda bank haqlıdır: "Hazırda bu cür hallar çoxalıb. Yaxşı yaşamaq arzusu ilə bankların şirnikləndirici reklamlarına uyub kreditlər götürürlər. Bəzi vətəndaşlar da nəyinsə xətrinə hətta öz evini girov qoyulmasına icazə verir. Nəticədə ev ipoteka ilə yüklənir. Ancaq unudurlar ki, insan xəstələnə, hətta ölə bilər, bu zaman həm borclu olan tərəf, həm də bank xeyli problem yaşayır. Belə olan halda məhkəmə işi açılır, ev satılır və bank ona olan borc hissəsini götürür, yerdə qalan məbləğ evin sahibinə qaytarılır. Lakin mənim məsləhətim budur ki, mərhumun varisləri bir yerə yığışıb pul toplayıb məhkəməyə qədər borcu ödəsinlər. Məhkəmə günü bank rəsmisi sənəd təqdim edərək borcun ödənildiyini göstərdikdən sonra iş bağlanır. Hər hansı bir güzəştə getmək isə bankın öz səlahiyyətindədir. Bank borcu tamamilə ləğv edə və ya hissə-hissə ödənilməsinə icazə verə, yaxud qanunla öz haqqını tələb edə bilər".

❑ **Xalidə GƏRAYEVA**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, keyfiyyətli, qısa müddətdə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com**
**Doktor Vaiz Səmədov.**




**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34



## Zaqatala iki minik maşını toqquşub, ölən və yaralanan var

**Zaqatalada ölümlə nəticələnən yol qəzası baş verib. APA-nın Şəki-Zaqatala bürosunun verdiyi məlumata görə, hadisə bu gün səhər saat 10.30 radələrində Yevlax-Zaqatala-Balakən magistral yolunun Zaqatala şəhəri ərazisindən keçən hissəsində qeydə alınıb.**

"VAZ-21014" və "VAZ-2106" markalı minik maşınlarının toqquşması nəticəsində şəxsiyyəti məlum olmayan bir kişi dünyasını dəyişib. Daha bir nəfər - 1969-cu il təvəllüdlü İsmayıl Kərimov isə aldığı ağır bədən xəsarətləri ilə Zaqatala Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilib.

Zaqatala Rayon Polis Şöbəsindən APA-ya bildirilib ki, hazırda polis qəzanın baş vermə səbəblərini araşdırır.

## Ötən ay ölkədə 54 nəfər qidadan zəhərlənib

**Bu ilin noyabr ayı ərzində Azərbaycanda əhali arasında 50 qida zəhərlənməsi hadisəsi baş verib. Səhiyyə Nazirliyinin Gigiyena və Epidemiologiya Mərkəzinin şöbə müdiri İmran Abdullayev APA-ya açıqlamasında bildirib ki, ümumilikdə 54 nəfər zərər çəkib, ölən olmayıb.**

Ötən ay 6 botulizm hadisəsi qeydə alınıb, nəticədə 10 nəfər zərər çəkib. Botulizm hadisələrinin hamısı məişətdə baş verib. Bu ilin 11 ayı ərzində isə Azərbaycanda əhali arasında 1114 qida zəhərlənməsi hadisəsi baş verib. Nəticədə 1242 nəfər zərər çəkərək qidadan zəhərlənib. Ötən 11 ay ərzində 21 botulizm hadisəsi qeydə alınıb ki, bunun nəticəsində 37 nəfər zərər çəkib. Botulizm nəticəsində 1 nəfər dünyasını dəyişib. Botulizm hadisələrinin hər biri ev şəraitində hazırlanan turşulardan olub.

## Bakının mərkəzində yerləşən cəzaçəkmə müəssisələri köçürüləcək

**"Dünyanın heç bir dövlətində cəzaçəkmə sisteminə Azərbaycandakı kimi diqqət yoxdur. Bu da son zamanlar Azərbaycanda aparılan quruculuq siyasəti ilə bağlıdır. Bu gün digər dövlətlər Azərbaycana qibtə edirlər".**

APA-nın məlumatına görə, bunu **Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin rəisi, general-leytenant Mədət Quliyev** bildirib.

M.Quliyev Bakının mərkəzində yerləşən penitensiar müəssisələrin kənara köçürülməsi barədə danışarkən deyib ki, son illərdə Azərbaycanda 10 cəzaçəkmə müəssisəsi tikilib istifadəyə verilib, 7-si tikilmək üzrədir: "Biz çalışacağıq ki, Bakının mərkəzində yerləşən cəzaçəkmə müəssisələri kənara köçürülsün. Bunların hamısı maliyyələşmə ilə bağlıdır. Təxminən bir il ərzində biz Lənkəranda inşa olunan cəzaçəkmə müəssisəsini istifadəyə verəcəyik. Sabunçu rayonunda qadın müəssisəsi tikilmək üzrədir. Düşünürəm ki, növbəti 5 il ərzində bu proses mərhələli olaraq həyata keçiriləcək".

## Nazirlikdən hava xəbərdarlığı: Sulu qar, qar yağacaq

**Bakıda və Abşeron yarımadasında dekabrın 13-də hava şəraitinin gün ərzində dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə zəif duman, çiskin olacaq. Cənub küləyi axşam arabir güclənən şimal küləyi ilə əvəz olunacaq.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən "Qafqazinfo"ya daxil olan məlumata görə, havanın temperaturunun gecə 5-7, gündüz 9-14 dərəcə isti olacağı gözlənilir.

Atmosfer təzyiqi normadan yüksək 768 mm civə sütunundan 762 mm civə sütununa enəcək, nisbi rütubət gecə 75-85, gündüz 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında dekabrın 13-də hava şəraitinin əsasən yağmursuz keçəcəyi, gecə və səhər bəzi yerlərdə duman, çiskin olacağı gözlənilir. Dekabrın 13-dən 14-nə keçən gecə qərb rayonlarından başlayaraq hava yağıntılı olacaq, dağlıq ərazilərdə sulu qar, qar yağacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 1-6, gündüz 9-14 dərəcə isti, dağlarda gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 6-11 dərəcə isti olacağı gözlənilir.

Dekabrın 14-dən 16-dək ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış, dağlıq və dağətəyi rayonlarda sulu qar, qar yağacağı gözlənilir. Dekabrın 13-dən 14-nə keçən gecə şimal küləyi arabir güclənəcək.

**Havanın temperaturu ötən günlərlə müqayisədə 2-4 dərəcə aşağı enəcək.**

YENİ MÜSAVAT
N 304 (6003) 13 dekabr 2014

# İnsanları "kütləvi intihar həddinə" çatdıranlar cəzalanacaqmı?

## Mirvari Qəhrəmanlı: "Ən böyük problem işçilərlə əmək müqaviləsinin bağlanmamasıdır"

## Azər Quliyev: "Daha çox kimsəsiz və güclü arxası olmayan işçilərlə qanuna zidd şəkildə davranırlar"

**Ölkəmizdə bir körpü intiharı ənənəsi formalaşmışdı ki, problemlə üzləşən hər kəs bu körpüyə çıxıb dövlət qurumlarına səslənərək problemini ictimailəşdirməyə çalışırdılar. Artıq hüquq-mühafizə orqanları həmin körpünü nəzarətə götürərək bu intihar ənənəsinə son qoydu. Ancaq bu, nümayişkaranə şəkildə intihar etmək istəyən insanları fikrindən daşındırmaq üçün yetərli olmadı. Bu dəfə tikinti fəhlələri 12 mərtəbəli binanın ən hündür yerinə çıxaraq kütləvi şəkildə intihara cəhd etdilər.**



Mətbuat bu hadisənin üstündən səssiz keçsə də, fakt istənilən ölkə üçün böyük bir ajiotaj yaradacaq olaydır. Buradan belə nəticəyə gəlmək olar ki, körpünü intihar etmək istəyənlərdən mühafizə etmək hələ problemin həlli deyil. İlk növbədə insanları intihar həddinə çatdıran problemləri həll etmək lazımdır.

Tikinti sektorundakı vəziyyətə və sözügedən hadisəyə münasibət bildirən **hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı** bildirdi ki, fəhlələrin intihar cəhdinə yaxşı baxmır: "İntihar etmək heç bir problemdən çıxış yolu deyil. Onlar canına qəsd edəcək və ailələri başsız qalacaq. Əlbəttə ki, problem çox aktualdır. Bizim təşkilatın işi təkcə neftçilərin hüquqlarının müdafiəsi ilə məhdudlaşmır, bizə daha çox tikinti sektorundan müraciətlər olunur. Ən böyük problem odur ki, işçilərlə əmək müqavilələri bağlanmır. Bütün problemlər bundan sonra başlayır. Belə olan halda işçinin hüquqlarını müdafiə etmək də çətinləşir. İlk növbədə əmək müqaviləsi bağlamayan və ya müqavilənin şərtlərini yerinə yetirməyən işverəndən Əmək Müfəttişliyinə şikayət olunmalıdır. Əmək haqları ödənilmirsə, bununla bağlı məhkəməyə də müraciət etmək olar və belə halda hər ödənilməyən əməkhaqqına görə, işə götürən 2% əlavə ödəniş etməlidir. Heç bir aidiyyəti quruma müraciət etmədən, hətta problemi işəgötürənlə həll etmədən intihara cəhd etmək sadəcə, bilgisizlikdən irəli gəlir".

**Mirvari Qəhrəmanlının sözlərinə görə, işəgötürənlə bağlanan əmək müqaviləsinin bir nüsxəsi işçidə qalmalıdır**: "Əgər əmək müqaviləsi bağlanmayıbsa, bu artıq qanun pozuntusudur. Azərbaycanda hətta dövlət qurumlarında da əmək müqavilələri bağlasalar da nüsxəsini vermirlər. Ancaq bu kimi halların qarşısını almaq elə də asan deyil. Çünki Əmək Müfəttişliyi duruma yetərincə nəzarət edə bilmir. İdarə və müəssisələrdə, xüsusilə tikinti sektorunda əmək hüquqlarının pozulması ilə bağlı kifayət qədər faktlar var. Müfəttişliyin bu kimi yerlərdə icazəsiz monitorinq keçirmək imkanının olmaması da qanunvericiliyin çatışmazlıqlarından biridir".

**Müsahibimin dediyinə görə, əmək haqlarının gecikdirilməsi hallarına neft sektorunda rast gəlinməsə də tikinti sektorunda vaxtaşırı belə hallar baş verir:** "Özəl sektorda belə hadisələr daha çox olur. Bunun da kökündə əmək müqaviləsinin olmaması durur. Problemin həlli üçün Əmək Müfəttişliyinin səlahiyyətləri artırılmalı, eləcə də maaşları qaldırılmalıdır ki, daha obyektiv ola bilsinlər".

**Hüquqşünas Azər Quliyev** isə "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, əmək hüquqları ilə bağlı ən böyük problem işçilərin əmək müqaviləsində nəzərdə tutulmayan səbəblərdən işdən çıxarılmasıdır: "Ən aktual məsələ hazırda işçilərlə müddətli əmək müqavilələrinin bağlanmasıdır. Bu zaman müqavilə müddəti bitdikdə işçi işdən çıxarılarsa onlar heç bir kompensasiya verilmir. Bəzən kütləvi ixtisarlar zamanı fəhlələr narazı qalır və onlar yeganə gəlir yerini itirirlər. Bu gün iş yerlərinin az olması da insanları əmək hüquqlarını müdafiə etməkdən çəkindirir. Çünki belə olduğu halda onlar iş yerlərini itirmək təhlükəsi ilə üzləşirlər".



Azər Quliyev vurğuladı ki, tikinti şirkətləri əsasən kimsəsiz və güclü arxası olmayan işçiləri belə asanlıqla, qanuna zidd şəkildə işdən çıxara və ya əmək haqlarını kəsə bilirlər.

**Məsələ ilə bağlı Əmək Müfəttişliyi ilə əlaqə saxlamağa çalışsaq da zənglərimiz cavabsız qaldı.**

❑ Nərgiz LİFTİYEVA

# Yeni il hədiyyələrinin içindəki zəhər...

Paytaxtda satışı qadağan edilmiş protexniki məhsullar satılır; **Eyyub Hüseynov:** "Bəzi işbazlar köhnəlmiş peçenyeləri, konfetləri hədiyyə kimi qablaşdırıb satırlar..."

**Yeni ilin gəlişinə daha çox sevinənlər uşaqlar olur. Bu bayramı ən çox balacalar gözləyir desək, yəqin ki, yanılmarıq. Çünki Şaxta babanı, daha çox da onun hədiyyələrinin yolunu səbirsizliklə gözləməyə başlayırlar.**

Ancaq Şaxta babanı evə dəvət etmək hədiyyəni valideynin özü almaq şərti ilə 15-20 manata başa gəlir. Buna görə də çox vaxt valideynlər uşaqlarını sevindirmək üçün hədiyyəni özləri mağazalardan alır.

Hazırda paytaxtın mağazalarında müxtəlif çeşiddə, ölçüdə və dizaynda Yeni il hədiyyələri satılır. Qiymət isə 5 manatdan 30 manat arasında dəyişir. Hədiyyə paketlərinin içini açıb baxmaq mümkün olmadığı üçün bəzən işbazlar bu bağlamaların içərisini vaxtı keçmiş, köhnə məhsullarla doldururlar. Şaxta baba hədiyyələrinin qiyməti, haradan gətirildiyini öyrənmək üçün bir neçə marketə baş çəkdik.

**Nərimanov rayonu ərazisindəki marketin satıcısı yalnız Rusiya istehsalı olan hədiyyə paketlərini satdıqlarını bildirdi. Yerli Yeni il hədiyyələrini niyə satmadıqlarını soruşduqda isə satıcı onlardan keçən il çoxlu şikayət gəlməsi ilə əsaslandırdı:** "Azərbaycan istehsalı olan Yeni il hədiyyələrinin içərisinə vaxtı keçmiş şokolad, şirniyyatlar qoyulurdu. Biz də onları alıb satışa qoyanda içində hansı şirniyyatların olduğunu, vaxtı keçib keçmədiyini müəyyən edə bilmirik. Keçən il bir neçə valideyn gətirib qutunu üstümüzə atdı ki, vaxtı keçmiş məhsullar satırsınız. Ona görə də Rusiya istehsalı olan məhsulları alırıq. İndidən alıcılar var".

Hədiyyələrdən birini alıb içərisini açdıq. Qiyməti 10 manat olan qutunun içərisindən şampan formasında olan limonad, 2 ədəd balaca saqqız, şokolad, vafli, peçenye və yeni il maskası vardı. Hər birinin də üzərində istehsal tarixi öz əksini tapmışdı. Mağazada bahalı olan hədiyyələr bu ilin ünsürü olan qoyun formasında olan bağlama idi. Bu yumşaq oyuncaq olan qoyunun içərisi də şirniyyatlarla dolu idi. Amma bu Yeni il hədiyyəsi 25 manata, ondan nisbətən böyük Yeni il hədiyyəsi isə - 30 manata satılırdı.

"Neftçilər" metrosu yaxınlığındakı marketdə isə Azərbaycan istehsalı olan Yeni il hədiyyələri satılırdı. Onların qiyməti 2-15 manat arasında idi. Övladının təkidi ilə Yeni il hədiyyəsi seçən alıcı Almaz Əliyeva hədiyyəni alarkən tərəddüd etdiyini bildirdi: "Keçən il uşağa aldığım Yeni il hədiyyəsinin içindəki şokolad köhnə idi. Bizdə baxmamışdıq. Uşaq yeyib zəhərlənmişdi. Bununla bağlı şikayətdə etdim. Bir neçə gün marketdə həmin Yeni il hədiyyələrini yığışdırdılar. Bir müddətdən sonra isə mən yenə də həmin hədiyyələri mağazanın vitrinində gördüm. Ondan sonra bu Yeni il bağlamalarını almağa tərəddüd edirəm".

**Laçın Paşayev isə bu tip bağlamalara etibar etmədiyi üçün Yeni il hədiyyəsini özünün düzəltdiyini bildirdi:** "Mən nəvəmin sevdiyi konfet, şokoladı alıb özüm hədiyyə şəklində bükük verirəm. bu həm etibarlı olur, həm də bilirəm ki, içindəki nədir".

Qeyd edək ki, Yeni il hədiyyələrinin bəzilərinin üzərində nə əmtəə nişanı vardı, nə də ki, istehsal tarixi.

Yeni il hədiyyələri ilə yanaşı paytaxtın bir neçə yerində satışı qadağan edilmiş pirotexniki vasitələr də rast gəldik. Daxili İşlər Nazirliyi hər il bayramı ərəfəsində satışı qadağan edilmiş pirotexniki məmulatlarla əlaqədar insanlar arasında mütəmadi olaraq müxtəlif maarifləndirmə tədbirləri aparsa da, təəssüflər olsun ki, bu cür məhsulların satışı və istifadəsinə hər il rast gəlmək mümkündür. Hətta bu cür məmulatları səyyar satıcılar avtobuslara minərək də əhaliyə təklif edirlər.

Maraqlıdır, üzərində istehsal tarixi olmayan Yeni il hədiyyə paketləri, protexniki məhsullar necə olur ki, satışa çıxarılır və bu sahəyə nəzarət edilmir? **Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** hər il bu problemlə üzləşdiklərini dedi: "Bəzi işbazlar köhnəlmiş peçenyeləri, konfetləri qablaşdırıb satırlar. Protexniki məhsulların satışına gəlincə isə bunlara tələb var. Görünür, maarifləndirmə işi yaxşı aparılmır. Məktəblərdə də uşaqlara bunun haqda maarifləndirici məlumatlar verilməlidir. Protexniki məhsullar çox təhlükəlidir. gərək bunun qarşısı alınsın. Bu məhsullar Azərbaycana müxtəlif yollarla gəlir".

❑ Günel MANAFLI

**Fotolar müəllifindir**







YENİ MÜSAVAT

Son səhifə

N 304 (6013) 13 dekabr 2014



## İtlərinin yeni il hədiyyəsinə 3 min dollar xərclədi

**Böyük Britaniya sakini Stefani Mariam öz itlərinin Yeni il hədiyyəsinə təxminən 3 min dollara yaxın pul xərcləyib. Bu barədə lenta.ru saytı "The Daily Mirror"a istinadən xəbər verir. Harvi Mun, Konni adlı itlərinə kristal "Svarovski", bər-bəzəkli yataq, oyuncaq və aksesuarlar alınıb. Mariam bildirib ki, itləri yeni il bayramını çox sevir: "Biz öz itlərimizə ancaq onların sevdiklərini hədiyyə edirik. Sevgi, nəvaziş, yemək və təbii ki, bir neçə stilli əşya".**

Sahibə bildirib ki, o, özünə çox az pul xərcləyir. Bunun əvəzində isə itlərini sevindirməyə üstünlük verir. Xəbərdə həmçinin qeyd olunub ki, bu il Stefani öz itləri üçün keçirdiyi məclisə 16 min dollar pul xərcləyib. 21 yaşlı qız valideynləri ilə birgə yaşayır və sonuncular da onun bu xobbisinə maddi-mənəvi dəstək verirlər. Stefani özü isə rəqs üzrə məşqçidir.




## Telekonfransla evləndilər, sonra da boşandılar

**Konqoda maraqlı bir nikah mərasimi baş tutub. Noel Tsihani adlı kişi ABŞ-ın ttp://www.haberturk.com/etiket/abdMaryland şəhərində yaşayan ttp://www.haberturk.com/etiket/maryland_eyaletiMarie-Louise ttp://www.haberturk.com/etiket/marie_louise adlı qadınla "telekonfrans" vasitəsilə rəsmi nikah gerçəkləşdirib.Amma cütlük daha sonra boşanıb. Məhkəmə Tsihaninin həyat yoldaşına 6 min dollar maddi təzminat və həyat yoldaşı yardımı ödəməsinə qərar verib.**

Tsihani isə bu pulu ödəməmək üçün deyib ki, nikah zamanı Konqoda olduğu üçün bu evlilik saxtadır. Amma Marylandda qanunlar tamam başqa cür işləyir: burada telekonfransla baş tutan evliliklər də keçərli sayılır. Bu barədə məhkəmə qərarı belə var.

# Mənzili 1,5 dollara aldı, təmirinə 150 min funt sterlinq xərclədi

**İngiltərənin Liverpul şəhərinin sakinlərindən biri 1,5 dollara aldığı dağılmış, uçuq-sökük, viranə mənzili lüks yaşam məkanına çevirib. Taksi sürücüsü, 45 yaşlı Cəlalal Madda satın aldığı mənzilin təmirinə 150 min funt-sterlinq sərf edib. Milli.Az Daily Mail-ə istinadən bildirir ki, mənzilin tam təmiri başa çatıb və Cəlalal Madda ailəsi ilə birlikdə Milad bayramından sonra bu mənzilə köçəcək. Liverpul şəhər bələdiyyəsi kənar məhəllələrdə yaşamı aktivləşdirmək və sakinlərin sayını artırmaq üçün uçulub-dağılan binalardakı mənzilləri 1 funt-sterlinqdən satışa çıxarmışdı. Cəlalalın sözlərinə görə, 48 yaşlı xanımı Çaminda və iki qızı təmirdən sonra mənzili çox bəyəniblər.**



# 71 dəfə plastik əməliyyat keçirdi, 1 milyon xərclədi

**İngilis model gənc yaşda ən çox plastik əməliyyat keçirən modellər siyahısına düşə bilər. Buna səbəb isə 34 yaşlı keçmiş modelin artıq sayını belə unutmağa başladığı cərrahi müdaxilələrdir. Alisiya Douvall adlı qadın bu vaxta qədər nə az-nə çox düz 71 dəfə həkimin bıçağı altına yatıb. Anesteziya olmadan 260 dəfə botoks və ya bənzəri prosedurdan keçib. Bütün bu əməliyyatlara isə o, 1 milyon funt sterlinq xərcləyib.**

Douval ilk əməliyyatını 17 yaşında olub. Əməliyyatlar zəncirinə sinəsini slikonla böyütməklə başlayan qadın sonradan 16 dəfə sinə, 7 dəfə burun əməliyyatı olub.

Onun sözlərinə görə, bu qədər əməliyyat keçirməsində məqsəd özünü "Barbi" gəlinciyinə bənzətmək olub. Həkimlər isə onun bu istəyinə heç vaxt qarşı çıxmayıblar. "Onlar mənim pulumu istəyirdilər. Heç biri bu qədər bəsdir, dur demədi mənə".

İndi isə. bu qədər əməliyyatdan sonra keçmiş model nəinki gözəlləşib, hətta özünü çirkin hesab edir. İki qız anası olan Douvall hələlik əməliyyat olmayacağını deyir.





## 4 yaşlı qız məşhur brend üçün paltar hazırlayır

**Amerikanın məşhur brendi J.Crew yeni uşaq kolleksiyasını 4 yaşlı Meyxem Kayserlə əməkdaşlıq çərçivəsində təqdim edəcək. Balaca qız tərəfindən hazırlanan əşyalar 22.5 dollara təklif ediləcək və 2015-ci ilin yayında satışa çıxarılacaq. Qız paltarların kağız modelini hazırlayacaq. Bundan sonra dizayner qrupu həmin ideyalar əsasında paltarların parça versiyasını ərsəyə gətirəcək. Hazır geyimlər J.Crew brendi adı altında satışa çıxarılacaq. Firmanın rəhbəri Cenni Kuper deyib ki, ilk dəfə Meyxemin necə işlədiyini görəndə şoka giriblər. Firmanın mütəxəssisləri onun əşyalara necə həssaslıqla yanaşmasından şoka düşüblər. Meyxemin populyarlaşmasına anası Enci Kayzerin öz bloq və İnstaqramdakı hesabında qızının kağızdan hazırladığı paltarları nümayiş etdirməsi səbəb olub. Öz işlərində uşaq tanınmış aktrisaların paltarlarını təkrar hazırlamağa çalışıb.**




**QOÇ** - Hiss olunur ki, bu gün ümumi gərginlik ovqatınıza hakim olacaq. Elə isə bütün gücünüzü toparlayıb neqativ hallara qarşı müqavimət göstərin. Enerjinizi boş yerə xərcləməyin.

**BUĞA** - Neçə gündən bəri verdiyimiz tövsiyələrə əməl etmisinizsə, təxminən saat 12-dən başlayaraq iştirakçısı olduğunuz proseslər xeyrinizə cərəyan edəcək. Özünüzə təzə geyim alın.

**ƏKİZLƏR** - Ulduzlar ovqatınızı yüksəltmək üçün əllərindən gələni edəcəklər. Amma heç olmasa, özünüz də buna azacıq cəhd etməlisiniz. İnsanlara qarşı gülərüz münasibət göstərin.

**XƏRÇƏNG** - Ətrafınızda olan xeyirxah insanların qədrini bilin. Onsuz da həyatda təkbaşına çox şeyə nail ola bilmirsiniz. Yersiz ittihamlara, dedi-qoduya əhəmiyyət verməklə səviyyənizi endirməyin.

**ŞİR** - Xurafatçıların "nəhs gün" adlandırdığı bu təqvimdə çoxdan görmədiyiniz dost və qohumlarınıza baş çəkin. Nahar ərəfəsində aldanma ehtimalınız olduğu üçün bir qədər tədbirli olun.

**QIZ** - Bu təqvimin mahiyyətini romantik məcraya yönəltməklə ümumi gərginliyinizi azalda bilərsiniz. Əks cinsin nümayəndələri ilə mehriban davranın. Özünüzü zəhərlənmədən gözləyin.

**TƏRƏZİ** - Fəaliyyət istiqamətində vaxtınızı çox itirməyin. Onsuz da nəzərdə tutulan nəticəni əldə edə bilməyəcəksiniz. Buraxdığınız səhvləri etiraf etməyi və bağışlamağı bacarmalısınız.

**ƏQRƏB** - Günün ümumi görüntüsü qarşıdurmalarla müşayiət olunacaq. Nə qədər çətin olsa da, əsəblərinizi cilovlamağa çalışın. Bunu bacarsanız, axşama yaxın ovqatınız yüksələ bilər.

**OXATAN** - "Nəhs gün" anlamına ciddi yanaşmayın. Əksinə, bu gün uğurlu məqamlar yaşayacaqsınız. Maddi çətinliyi özünüzə dərd etməyin. Axşam çoxdan görüşmədiyiniz yaxınlarınıza baş çəkin.

**OĞLAQ** - Bu gün yeganə probleminiz səhhətinizlə bağlı ola bilər. Odur ki, əsəbi situasiyalardan, daxili soyuqdəymədən qorunmalısınız. Qalan məsələlərdə isə ciddi probleminiz olmayacaq.

**SUTÖKƏN** - Dünyanı düzəltmək fikrindən vaz keçin. Özünüzü və ətrafınızdakıları ədalət müstəvisinə çəkə bilsəniz, bu da böyük işdir. Nəzərə alın ki, insanları inandırmaq qabiliyyətiniz aşağıdır.

**BALIQLAR** - Riskli işlərə, nəticəsinə əmin olmadığınız sövdələşmələrə girişməyin. Daha çox evdə, ailə üzvlərinizlə, dostlarınızla bir yerdə olmağa çalışın. Qonaq getmək də olar.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 3 yaşlı qız kərpic və lampa yeyir



**Amerikada yaşayan 3 yaşlı qız qeyri-adi və inanılmaz xəstəlikdən əziyyət çəkir. Nataliya Hayhurst qeyri-qida məhsulları yeyir. Qızın ən çox sevdiyi "yemək" isə kərpiç və lampadır.**

Tibdə "Pica" adlandırılan xəstəlikdən əziyyət çəkdiyi üçün ailəsi uşağı nəzarətsiz qoymur. Belə ki, azyaşlı bir müddət öncə otağındakı lampanı yeyib. Ağır vəziyyətdə olan uşağı çox çətinliklə həyata qaytarmaq mümkün olub.

Uşağın anasının sözlərinə görə, bu hadisədən sonra o, lampa yeməyi nisbətən tərgitsə də, bağçada tapdığı daşları, taxta parçalarını iştahla yeyir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 10.565